**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “QARABAĞ AZƏRBAYCANDIR!" TƏBLİĞATININ BU GÜNÜ VƏ SABAHI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Şahbazova Sərvinaz Natiq**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**“____” ________________ 2022-ci il**

# “QARABAĞ AZƏRBAYCANDIR!" TƏBLİĞATININ BUGÜNÜ VƏ SABAHI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060411-Kommersiya

**İxtisaslaşma:** Kommersiya fəaliyyəti

**Qrup: 906**

**Magistrant**
**Şahbazova Sərvinaz Natiq qızı**

**___________________imza**

**Elmi rəhbər**
**i.e.n., dos. Allahverdiyeva Müslümat Allahverdi qızı**
**_____________________ imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Nəcəfova Kəmalə Akif qızı**
**_____________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________ imza**

**Bakı - 2022**

## Elm andı

Mən, Şahbazova Sərvinaz Natiq qızı and içirəm ki, “Qarabağ Azərbaycandır!" təbliğatının bugünü və sabahı: problemlər və perspektivlər”  mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“QARABAĞ AZƏRBAYCANDIR!" TƏBLİĞATININ BUGÜNÜ VƏ SABAHI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR”**
**XÜLASƏ**

**Tədqiqatın aktuallığı: Dövlətin, siyasi güc mərkəzlərinin nəzərdə tutduğu məsələlərin daha böyük əhali qrupunun inamına çevrilməsi, onlara bunun qəbul etdirilməsindən ötrü informasiyanın, təbliğatın gücü yüksəkdir.**

**Tədqiqat məqsədləri: Dissertasiya işinin əsas məqsədi Qarabağ ərazisinin işğal edildiyi müddətdən işğaldan azad olunan müddətə qədər və eyni zamanda işğaldan azad olunan vaxt və sonrakı zamanlarda da aparılan təbliğat prosesinin, həmçinin, Qarabağın bugünu və sabahının təhlilinin aparılmasından ibarətdir.**

**İstifadə olunmuş tədqiqat metodları: İşin aparılmasında siyasi elmlərdə tətbiq olunan ümumməntiqi metodlardan - analiz və sintez, retrospektiv, bibliometrik, ümumiləşdirmə, eyni zamanda müqayisəli və sistemli təhlil metodlarından da istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Dissertasiya işinin informasiya bazasını yerli və xarici tədqiqatçıların elmi əsərləri, tədqiqat işləri, məqalələr, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin statistik nəticələri və internet resursları təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat işinin həyata keçirilməsinə mane olan nəzəri-metodoliji çatışmazlıqlar, yeni informasiya bazasının mövcud olmaması.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiq olunan mövzu aktual olduğuna, siyasi və sosial əhəmiyyət kəsb etdiyinə, müəyyən bir hissəsi ən yeni illəri əhatə etdiyinə görə o, ilk dəfə olaraq ümumi şəkildə sistemli araşdırılmışdır.“Qarabağ Azərbaycandır!" təbliğatının üstün cəhətdən nəticələri əldə olunmuşdur.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Azərbaycanda beynəlxalq münasibətlər və "Qarabağ Azərbaycandır!" təbliğatına aid olan dərsliklərin, dərs materiallarının və monoqrafiyaların, dissertasiyada bəhs edilən elmi mülahizə və fikirlər, elmi əsərlərin yazılıb həyata keçirilməsində, həyata keçirilmiş araşdırmaların nəticələri bu mövzu ilə bənzər olan növbəti tarixlərdə daha yeni tədqiqat mövzularının istiqamətlərinin müəyyənləşdirilməsində tələbələr və s. üçün yararlı ola bilər.**

***Açar sözlər: Qarabağ, Azərbaycan, tarix, təbliğat.***

**TODAY AND TOMORROW OF THE PROPAGANDA OF "KARABAKH IS AZERBAIJAN!": PROBLEMS AND PERSPECTIVES**
**SUMMARY**

**The actuality of the subject: The power of information and propaganda is high in order to turn the issues envisaged by the state and political power centers to become the confidence of a larger group of the population, and for them to accept it.**

**Purpose and tasks of the research: The main purpose of the dissertation is to analyze the propaganda process, as well as the present and future of Karabakh, from the occupation of Karabakh to the liberation of the occupied territories, as well as during and after the liberation.**

**Used research methods: The work has been used in political methods - analysis and synthesis, retrospective, bibliometric, generalization, as well as comparative and systematic analysis methods.**

**The information base of the research: The database of the dissertation is the statistical results of local and foreign researchers, research work, articles, statistical results and internet resources of the State Statistics Committee of the Republic of Azerbaijan.**

**Restrictions of research: The indigestions of the research operation are the lack of the theoretical and methodolic deficiencies and the new database.**

**The novelty and practical results of investigation: Due to the relevance of the research topic, its political and social significance, and the fact that some of it covers the most recent years, it was studied systematically for the first time in general. The positive results of the “Karabakh is Azerbaijan!” Propaganda have been identified.**

**Scientific-practical significance of results: Textbooks, monographs and scientific works on international relations in Azerbaijan and the propaganda of “Karabakh is Azerbaijan!”, scientific discretion and ideas in the dissertation and the results of research can be useful in determining the directions of new research work in the future for students and etc.**

***Keywords: Karabakh, Azerbaijan, history, propaganda.***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **SSRİ** | Sovet Sosialist Respublikaları İttifaqı |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **UEFA** | Avropa Futbol Assosiasiyalarının İttifaqı |
| **DQMV** | Dağlıq Qarabağ Muxtar Vilayəti |
| **DQMV XDS** | Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatlar Soveti |
| **AKP MK** | Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi |
| **QİÇS** | Qazanılmış İmmun Çatışmazlıq Sindromu |
| **AXC** | Azərbaycan Xalq Cümhuriyyəti |

MÜNDƏRİCAT

**GİRİŞ ........ 8**

**I FƏSİL. QARABAĞIN TƏBLİĞATININ TARİXİ-İQTİSADİ ASPEKTLƏRİ ........ 13**

1.1. Təbliğat kommunikasiya elementi kimi ........ 13

1.2. İşğaldan əvvəlki illərdə əsas iqtisadi göstəricilərinin təhlili ........ 26

1.3. I və II Qarabağ müharibələri və onların nəticələri ........ 35

**FƏSİL II. "QARABAĞ AZƏRBAYCANDIR!" TƏBLİĞATININ BUGÜNÜ VƏ SABAHI** ........ 46

2.1. Qarabağın Azərbaycanın qədim yaşayış məskəni kimi təbliğatı ........ 46

2.2. Qarabağın 30 il ərzində Azərbaycan olmasının təbliğatı və onun çatışmayan cəhətləri ........ 50

**III FƏSİL. QARABAĞ TARİXİNDƏ YENİ DÖVR-BƏRPA, QURUCULUQ LAYİHƏLƏRİ ........ 55**

3.1. Azad Qarabağın təbliğatında dövlətin rolu ........ 55

3.2. Qarabağ Azərbaycandır təbliğatı üçün tövsiyyə edilən layihə ........ 64

**NƏTİCƏ ........ 72**

**İSDİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........ 74**

**Cədvəllərin siyahısı ........ 776**

**Şəkillərin siyahısı ........ 86**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Qarabağ Azərbaycanın qədim tarixə malik bir bölgəsidir. Qarabağ özünün tarixi, maddi-mədəniyyət abidələri, incəsənət və musiqi mədəniyyəti ilə zəngindir. Onun gözəl təbiəti, iqlimi və təbii sərvətlərinin bolluğu həmişə müxtəlif ölkələrin marağında olmuşdur. Qarabağ dəfələrlə müxtəlif ölkələrin hücumlarına məruz qalmışdır. Xüsusilə bədxah qonşular "böyük ermənistan" xülyası ilə dəfələrlə Qarabağa hücum etmişlər. Bu torpaqların erməni torpaqları oluğunu dünyaya bildirmək üçün öz ermənipərəst, şovinist siyasətlərini həyata keçirtmək üçün yalançı, real olmayan təbliğatlarını həyata keçirməyə başladılar. Birinci Qarabağ müharibəsində onlar bütün Qarabağ ərazisində qan tökərək, bizim qədim ata-baba yurdumuzu işğal etdilər. Tam 30 il bu gözəl diyarımız işğal altında qaldı. Bütün dünya erməni lobbisinin , yalan təbliğatının səbəbi ilə onlara inandı. Bizim təbliğatımız isə bu torpaqların qədim Azərmaycan torpaqları olduğunu dünyaya çatdırmaq üçün kifayət deyildi. Dünyanın ən məşhur muzeylərində Qarabağ xalçaçılıq nümunələri, digər mədəniyyət nümunələri Londonun Viktoriya və Albert muzeylərinin, Paris Luvr muzeyinin, Vaşinqton Metropoliten Muzeyinin, Vyana, Roma, Berlin, İstanbul, Tehran, Qahirənin zəngin muzey kolleksiyalarında erməni xalqına məxsus olan eksponatlar kimi saxlanılır.

Qarabağ hər zaman Azərbaycanın ən doğma, ən gözəl təbiətə, özünəməxsus tarixə, mədəniyyətə məxsus olan ərazilərindən biridir və biri olaraq da qalacaqdır. Qalib bir ölkə olaraq Qarabağa sahiblənmək, onu dünyaya tanıtmaq vaxtıdır. Qarabağı görkəmli şəxsiyyətlərimiz Azərbaycanın mədəniyyət mərkəzinə çevirmiş, yurddaşlarımız daima burada yaşamış, yaratmışdı. Hər zaman öz doğma, əzəli torpaqlarına həssas yanaşaraq abadlıq işləri görmüş, əkib-becərmiş, mədəniyyət mərkəzləri qurmuşlar. Bir dövlət üçün öz torpaqları nə qədər əziz, doğma, hər zaman diqqət mərkəzində olarsa, Qarabağ ərazisi də Azərbaycan üçün tarix boyu diqqət mərkəzində və doğma olmuşdur. Bu torpaqları bizdən ayırmaqla, işğal etməklə, doğma vətəndaşlarımızın öz yurd-yuvalarından köçkün salmaqla dərin bir ağrı-acı yaşatmışdılar bizə. Bu həsrət bizi Qarabağa daha da bağlamışdı.

Azərbaycan və Ermənistan arasında Qarabağ regionuna aid münaqişə Cənubi Qafqazın müasir tarixinin ən mübahisəli problemlərindən biri olmuşdu. 30 ilə yaxın idi ki, bu problem təəssüf ki, öz aktuallığını qoruyub saxlayırdı. Artıq bu problem Qarabağın işğaldan azad olunması ilə dəyişib. Bugün əzəli torpaqlarımız Qarabağ işğaldan azad olundu.Bunu dünyaya çatdırmaq, ”Qarabağ Azərbaycandır” şüarını dünyara çatdırmaq, təbliğ etmək vacibdir.

Mənim valideynlərim də 1992-ci ildə öz dədə-baba yurdlarından məcburi köçkün olmuşdur .Bu dəhşətli hadisələri valideynlərim, qohumlarım yaşayıb. Mən bu hadisələri dinləyə-dinləyə böyüdüm. Çox xoşbəxtəm ki, mən böyük qələbəmizin şahidi oldum. Mən bu mövzuya hər zaman həssas yanaşmışam. Öz yürdlarından didərgin düşmüş insanların öz yurd-yuvaları haqqında hər zaman necə həsrətlə danışdıqlarına şahid olaraq məhz bu mövzunu seçib "Qarabağ Azərbaycandır!" təbliğatını hər yerdə aparmaq, həm də bu mövzunu tədqiq etmək istəmişəm. Torpaqlarımız işğaldan azad olduqda mən sevinc hissini görmüş, valideynlərimin timsalında bütün Qarabağ sakinlərinin sevincinin əbədi olması üçün, öz yurd-yuvalarında daima yaşayıb-yaratmaları üçün “Qarabağ Azərbaycandır” təbliğatı həm dövlətin, həm də hər bir Azərbaycanlının üzərinə düşür. Beləliklə mövzunun aktuallığı şübhə doğurmur.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Tədqiqat aparılan mövzu bu vaxta qədər sistemli şəkildə, ayrılıqda tədqiqat işi olmasa da, buna oxşar mövzularda tədqiqatçılar bizim araşdırdığımız mövzunun ayrı-ayrı məqamlarına toxunmuşdurlar. Bundan dolayı olaraq dissertasiyanın yazılması zamanı və eyni zamanda da bir neçə mühim məsələləri müəyyən etmək üçün onlardan istifadə olunmuşdur.

H.B.Məmmədovun əsərlərində müasir beynəlxalq münasibətlər sistemi və Azərbaycanın xarici siyasətinin istiqamətləri, prinsipləri, məqsəd, mahiyyət və vəzifələri araşdırılır. Həmçinin, kitabda Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin müharibəsiz yolla yox edilməsi istiqamətində BMT və dünya birliyinin gördüyü işlər araşdırılır.

Qəniyev H. əsərləri də müasir dövrdə tədqiq etdiyimiz problemin daha dərindən öyrənilməsi üçün əhəmiyyətlidir. Müəllifin kitabında Qarabağ tarixi dərindən araşdırılır və baş verən hadisələr xronoloji ardıcıllıqla təhlil olunur.

Məmmədov N. müəllifin böyük aktuallıq kəsb edən, eləcə də zəngin mənbələr əsasında yazılmış əsərlərində Qarabağın tarixi, Ermənistan-Azərbaycan, Qarabağın keçmiş münaqişəsi kontekstində kompleks şəkildə araşdırılmışdır. Piriyev V., Süleymanlı N. Öz təıdqiqatlarında tədqiq edilən mövzuya aid nüanslara toxunmuş, Qarabağın tarixi, təbliğatı geniş tədqiq edilmişdir. Ə.Q.Cəfərovun, M.M.Hüseynovun Qarabağ ərazisində apardıqları arxeoloji elmi-tədqiqat işləri də bu tədqiqatlar arasındadılr.

**Tədqiqatın məqsədi və vəzifələri:** mövzunun aktuallığı və əhəmiyyətinə diqqət edilərək müəyyənləşdirilmişdir. Tədqiqat işinin başlıca məqsədi Qarabağ ərazisinin işğal edildiyi müddətdən işğaldan azad olunan müddətə qədər və eyni zamanda işğaldan azad olunan vaxt və sonrakı zamanlarda aparılan təbliğat prosesinin, Qarabağın bugünu və sabahının təhlilinin aparılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakılardan ibarət vəzifələr qarşıya qoyulmuş və əməl edilmişdir:

-Təbliğatın mahiyyəti, formaları və onun siyasi, sosial, hüquqi rolunu müəyyənləşdirmək;

-XX əsrin sonlarında Ermənistanın Qarabağa dair ərazi iddialarını daha dərindən öyrənmək məqsədi ilə o dövrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu tarixi bölgəsinin sosial-iqtisadi, siyasi-hüquqi vəziyyətinin təhlil edilməsi;

- Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin beynəlxalq-hüquqi sənədlərə əsasən tədqiqinin aparılması;

-Etnik münaqişə və təbliğat qarşıdurmasını, "Qarabağ Azərbaycandır!" təbliğatının dövlət səviyyəsində təşkili xüsusiyyətlərini tədqiq edilməsi;

-Qarabağın bugünü və sabahı üçün zəruri və həyata keçirilməsi mümkün olan təbliğatlarla yanaşı, ziddiyyətli cəhətlərə, maneə və problemlərə, həmçinin perspektivlərə də xüsusi diqqət yetirilməsi, konkret elmi-nəzəri nəticələrin çıxarılması.

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiyanın obyektini Qarabağ, "Qarabağ Azərbaycandır!" təbliğatı, Azərbaycanın Qarabağ ərazisinin təbliğatının aparılma mexanizminin öyrənilməsi, predmetini isə aparılan təbliğat prosesində perspektivlər və maneələr, problemlərin elmi siyasi cəhətdən araşdırılması təşkil edir.

**Tədqiqatın metodları.** İşin aparılmasında iqtisadi elmlərdə tətbiq olunan ümumməntiqi metodlardan-analiz və sintez, retrospektiv, bibliometrik, ümumiləşdirmə, eyni zamanda müqayisəli və sistemli təhlil metodlarından da istifadə edilmişdir. Bu tədqiqatda toplanılan informasiyanın analitikliyini, onun obyektivliyini, operativliyini, səmərəliliyini təhlil edərək dissertasiya işinin səmərəliliyini artırmaq, nəticələrin dəqiqliyini təmin etmək üçün iqtisadi təhlil metodundan istifadə edilib. Yəni, ilk öncə tədqiqatın tərkib hissələrinin, elementlərinin öyrənilməsinə əsaslanılıb daha sonra məlumatların təhlili aparılıb.

Tədqiqatın daha dəqiq nəticələri üçün təhlil metodundan əlavə retrospektiv təhlil metodundan da istifadə edilib. Bu tədqiqatda retrospektiv təhlildən istifadə edilərək Qarabağın işğaldan əvvəlki, işğal edildiyi dövrdəki (I Qarabağ mühharibəsi 1990-1992-ci illər) və işğaldan azad olunduğu dövrü anlayaraq tədqiqat aparılıb. Tədqiqatda istifadə edilən başqa bir metodlardan biri də bibliometrik təhlil metodudur. Bibliometrik təhlilin əsas elementlərindən olan ilkin və II informasiya mənbələrinin təhlili və istinadların təhlilindən həm Qarabağın tarixi-iqtisadi aspektləri həm də Qarabağ qədim yaşayış məskəni üçün istifadə edilib. "Qarabağ Azərbaycandır!" təbliğatının necə irəliləməsini, eyni zamanda xarici jurnallarda necə qələmə alınmasını izləmək üçün bu jurnallardan istifadə edilib.

**Tətqiqatın informasiya bazasını**: Dissertasiya işinin informasiya bazasını yerli və xarici tədqiqatçıların elmi əsərləri, tədqiqat işləri, məqalələr, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin statistik nəticələri və internet resursları təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiqat işinin həyata keçirilməsinə mane olan nəzəri-metodoliji çatışmazlıqlar, yeni informasiya bazasının az olması.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiq olunan mövzu aktual olduğuna, siyasi və sosial əhəmiyyət kəsb etdiyinə, müəyyən bir hissəsi ən yeni illəri əhatə etdiyinə görə o, ilk dəfə olaraq ümumi şəkildə sistemli araşdırılır və dissertasiyanın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- 30 ilə yaxın işğal altında olmuş torpaqlarımızın işğaldan azad olunması və həmin torpaqların əbədi və əzəli Azərbaycan torpaqları olmasının təbliğatının kecmişi və bu günü araşdırılıb;
- İkinci Qarabağ müharibəsi zamanı beynəlxalq reaksiyalar, bəzi sosial-iqtisadi təsirlər təhlil edilib;
- Qarabağın işğaldan əvvəlki illərdə əsas iqtisadi göstəriciləri təhlil edilib;
- Qarabağın bugünü və sabahında aparıla biləcək təbliğat istiqamətləri təhlil edilib;
- Təbliğatın aparılması üçün xarici siyasətə, sosial-iqtisadi əlaqələrə xüsusi diqqət yetirilib, konkret elmi-nəzəri nəticələr çıxarılıb, tövsiyələr verilib,layihə hazırlanıb .

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri.** Dissertasiya işinin materiallarından aşağıdakı məqsədlər üçün istifadə etmək mümkündür:

- Azərbaycanda beynəlxalq münasibətlər və "Qarabağ Azərbaycandır!" təbliğatına dair dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların, elmi əsərlərin yazılmasında;
- dissertasiyada söylənilən elmi mülahizə və fikirlər, aparılmış araşdırmaların nəticələri bu mövzu ilə əlaqəli gələcək zamanda daha yeni tədqiqat işlərinin istiqamətlərinin müəyyənləşdirilməsində tələbələr və s. üçün faydalı ola bilər.

# I FƏSİL. QARABAĞIN TƏBLİĞATININ TARİXİ-İQTİSADİ ASPEKTLƏRİ

## 1.1. Təbliğat kommunikasiya elementi kimi

Hal-hazırda təbliğat dünya siyasətinin və diplomatiyasının başlıca elementlərindən biridir. Hal-hazırda siyasətin və diplomatiyanın səmərəliliyinin əsas elementlərindən biri də təbliğatdır. Təbliğatın düzgünlüyü, ondan düzgün şəkildə istifadə edilməsi, qoyulan məqsədə nail olmaqda fiziki qüvvətdən daha böyük əhəmiyyətə malikdir. Təbliğat strategiyasının effektiv şəkildə həyata keçirilməsi ilə bir ölkənin ölkədaxili və ölkəxarici ictimaiyyətə təsirli olmaq fürsətlərini böyütmək, gerçək olan strategiyaya daha geniş dəstək alına bilər. Effektiv şəkildə istifadə onunan təbliğatın çox böyük qüvvəsi vardır. Elə buna görə də Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın bunu güclü həyata keçirməsi, lobbiçiliklərini daha da artırmaqla xarici auditoriyalara təsir etmişdir. O zamanlarda ölkəmizdə isə təbliğat, lobbiçilik zəif olmuşdur. Ermənistan tərəfi yalan faktlarla xarici auditoriyanı özünə inandırmağa nail olarkən, biz doğru faktlarla bəzi xarici auditoriyalara özümüzü inandırmağı bacarmamışıq. Bu bəzi auditoriyalarda indi də davam edir. Məlumdur ki, Fransa dövləti, muxbirləri İkinci Qarabağ müharibəsində bizə necə yanaşırdı. Fransa Azərbaycan-Ermənistan münaqişəsində işğalçı Ermənistanı dəstəkləyib. Fransa prezidenti Emmanuel Makronun Ermənistan və Azərbaycan arasında münaqişə ilə bağlı 30 sentyabr tarixli bəyanatı ölkənin Minsk Qrupunun həmsədri kimi münaqişənin həlli üzrə vasitəçilik və həlli missiyasına uyğun gəlmir və bu missiyanı sual altına qoyub.

Lobbiçilikdən bəhs etmişkən lobbiçiliyin necə dərin və dövrümüzdə necə əhəmiyyətli rola malik olduğuna baxaq. Lobbiçiliyi dərindən anlamaq üçün ilk öncə “Lobbi” kəlməsinin anlamının mənası bilinməlidir. Lobbi kəlməsinin anlamı ingilis dilindən tərcümədə “dəhliz, vestibül, üstüörtülü gəzinti meydançası, səhnəarxası” anlamını verir. Lobbiçilik 1553-cü il tarixlərində İngiltərə monastırlarında “gözətçi meydançası” olaraq istifadə edilirdi. Dünya üzərindəki ən köklü lobbiçilik fəaliyyətləri Amerika Birləşmiş Ştatında olamaqdadır. Lobbiçilik termininin çıxış

nöqtəsi olaraq belə bir hadisə misal göstərilir ki, 1870-ci illərin ABŞ Prezidenti Ulysses S. Grant, Ağ Sarayda keçirtdiyi iş gününün stresindən yaxındakı Willard otelinin dəbli foyesində siqaret ve konyak ilə azad olmağa çalışırmış. Prezidentin bu vərdişini başqaları da kəşf etdikdə şəxsi və ya başqa səbəblərdən onun dəstəyini almaq istəyən bir çox insan zamanla bu otelin foyesində yığışmağa başladıqda, Prezident Grant da ona dərdlərini danışmaq üçün ətrafında yığışanlara "lobbiçilər" adını vermişdi.

Lobbiçilik uzun və ya qısa şəkildə zamanla aşağıdakı kimi ifadə olunub:
"Hüquqi qərarlara və tənzimləyici maddələri effektli etmək üçün birbaşa olaraq hökumət nəzdində edilən təsir sınaqlarıdır " (Theaker 2006: s.167)
"Dövlət idarəetməsində qanunverici və ya qərar qəbul edən vəzifədə olan şəxsləri məlumatlandırmaq və təsir etmək cəhdləridir" (Sabuncuoğlu 2001: s.28)
"Bir qanunverici ilə (parlamentlərlə) olan münasibətləri müntəzəm olaraq təsirli olmalıdır" (Grunig ve Hunt 1984: s.215)

Yuxarıda verilmiş lobbiçiliyin müxtəlif təriflərinə əsaslanaraq, belə qeyd etmək olar: Lobbiçilik, xalqın, təzyiq qrupları, şirkətlərin ya da beynəlxalq lobbiçilərin, ölkələrində və ya xarici ölkələrdəki qanunvericilik, icra və hətta məhkəmə orqanlarına öz maraqlarını istiqamətində ki qanunları dəstəkləyib-dəstəkləməməkdən, dövlət məmurlarının təyin olunub-olunmamasını müəyyən etmək üçün də müxtəlif ünsiyyət üsullarından istifadə edərək, inancın təmin edildiyi davamlılıq tələb edən mütəşəkkil bir təşkilat silsiləsi tədbirlərdir.

Lobbiçiliyə bənzəyən ve onunla əlaqəli olan bəzi anlayışlar vardır ki, bunlar bir-birlərinə qarışmış, hətta bəzi ifadələrdə bir-birlərinin yerinə belə istifadə olunmuşdur. Bu məna qarışıqlığının qarşısını almaq, daha fərqli bir mənaysını aydın etmək və bir-biri ilə olan fərqlərini ortaya çıxarmaq üçün əlaqəli anlayışlar haqqında qısa məlumat vermək yerinə düşərdi. Həmin anlayışlardan biri bürokratiyadır. Bürokratiya bəzən yalnız dövlət idarəçiliyi mənasında, bəzən isə ümumi şəkildə, bəzən təşkilatın inkişaf etmiş forması mənasında istifadə olunur. 1745-ci ildə fransız "fiziokrat" iqtisadçısı Vincentde Gourney ilk dəfə bu gün xalqın işlətdiyi

“bürokratiya, aristokratiya, burjuaziya” texnokratiya bir sinfi və onun mentalitetini təsvir edən bir termin kimi istifadə olunmuşdur. (Kabaklı, 2002: s.9)

Lobbiçiliklə qarışdırılan daha bir anlayış isə maraq qrupları anlayışıdır. Maraq qrupları ortaq maraqları olan fərdlərdən meydana gəlmiş ancaq bu ümumi marağı həyata keçirməkdə geridə qalmış, fərdlər arasında birlik şüuru olmayan və aktiv olaraq işləməsini təmin edəcək təşkilatı yoxdur. Bu səbəblə də hökumətə, qanunverici orqana və ictimaiyyətə təsir etmək üçün nizam-intizamla işləyə bilməyən qrupdur. Öztekinə görə (2001: s.95), maraq qrupu işi təşkil edən üzvlər tərəfindən insanların hər cür maddi və mənəvi mənafelərini qorumaq üçün təşkil edilmişdir və ya qeyri-mütəşəkkil insan qruplarıdır. Həmkarlar ittifaqları, assosiasiyalar və bütün növ cəmiyyətlərlə, müxtəlif peşəkar təşkilatlar maraq qrupu üçün nümunə göstərilə bilər. Maraq qrupu maarifləndirmə və təşkilatlanma təzyiq qrupuna çevrilmək deməkdir. O, həmçinin tez-tez "Təzyiq Qrupu" ilə əvəzedici mənada istifadə olunur. Təzyiq qrupu isə bəziləri tərəfindən bir-birini əvəz edən “Təzyiq Qrupu” və “lobbi”nin əsas məqsədi idarəçiliyə təsir göstərməkdir. Bütün bu anlayışlarla yanaşı təbliğat da bəzən lobbiçiliklə qarışdırılır. Həmçinin də lobbiçiliyin ən çox qarışdırıldığı anlayışların ilk sıralarında ictimaiyyətlə əlaqələrdir. Lakin lobbiçilik ictimaiyyətlə əlaqələrin istifadə etmiş olduğu bir üsul olmaqla birlikdə, dövlət sektoru üzərində qanunvericilik və qərar qəbuletmə mexanizmlərinə təsir göstərməkdir. Bu baxımdan ictimai rəyin formalaşdırılması baxımından bir ictimaiyyətlə əlaqələr fəaliyyəti kimi görünsə də ictimaiyyətlə əlaqələrdən ayrılan tərəfi vardır. Məsələn, lobbiçilik çox vaxt bir siyasi məqsədlə və bu istiqamətdə təsir vasitəsi olaraq istifadə olunarkən, ictimaiyyətlə əlaqələr daha çox ölkənin deyil, daha spesifik vəziyyəti təqdim eden qurumların, təşkilatların, sosial və iqtisadi maraqlarını qorumaq üçün tətbiqdir.

Lobbiçilik fəaliyyətində müxtəlif növ vasitələrdən istifadə olunur ki, onlardan bir neçəsini qeyd edək. İlk növbədə başlıca vasitələrdən biri televizyadır. Televizya, kütləvi informasiya vasitələri arasında ən geniş kütləyə, ən tez və ən təsirli şəkildə çata və alıcını həm vizual, həm də şifahi şəkildə inandıra bilən vasitədir. Siqnallar vasitəsilə rabitə təmin etdiyi üçün ölkə və məkan məhdudiyyəti yoxdur. hətta xaricə

yayımlar peyk vasitəsilə həyata keçirilir. Digər bir vasitə isə radiodur. Sadəcə səsli bir ünsiyyət vasitəsi olan radio, lobbiçilikdə daha çox əlaqəli mövzu haqqında proqramlar təşkili və bu proqramlara məruzəçi olaraq məlumatlı, istinad edilə bilən insanların, ictimaiyyətin tanıdığı insanların iştirakı formasında istifadə edilməkdədir. Misal üçün ictimaiyyətdə tez-tez adı çəkilən Fransadakı Erməni lobbisi, Türkiyəyə qarşı Osmanlı İmperiyası dövründəki Ermənilərə soyqırım edildiyi yalanını ortaya atmaqla həm hökumətlər, həm də yerli hökumətlər soyqırımın baş verdiyininə inanmışlar (Aziz 2003: s.27). Fransada bunu edərlərkən, sözdə "Erməni soyqırımı"nı tanıdan radio verilişlərinin çox tez-tez verməkdə idi (Akgönül 2002: 243). Lobbiçiliyin digər vasitəsi də qəzet və jurnallardır. Yazılı və çap olunmuş kütləvi informasiya vasitələri olan qəzet və jurnallar, müəyyən dövri olaraq saxlanabilər və təkrar-təkrar oxunabilən olmaqları səbəbi ilə hədəf kütlə üzərində önəmli bir təsir etməkdədir. Fransada fəaliyyət göstərən Erməni lobbilərinin aylıq olaraq çap edilən 3 jurnal, həftəlik çap olunan 2 jurnal və günlük olaraq çap edilən 2 qəzetin sahibi olduqları bilinməkdədir. Bu nəşrlərdə məşhur fransız ermənilərinin müsahibələri nəşr olunur, uğurlu Ermənilər yeni nəsillərə həm Fransız, həm Ermənilərə məşhur və uğurlu olması təsir etməkdədirlər. (Akgönül, 2002: s.242) Lobbiçiliyin digər növbəti bir vasitəsi isə internetdir. İnternet, 80-ci illərdən etibarən dünya üzərində yayılan və ictimaiyyət tərəfindən istifadə edilən sürətli, ucuz, saxlanıla bilən və qeyri-məhdud ünsiyyət formasıdır. İnternetdə mövzunun izahında zaman, məkan və vaxt məhdudiyyəti yoxdur və şəxsi mesajlar aidiyyatı şəxslərə çatdırıla bilər. Məsələn, Fransada, ermənilərə görə erməni soyqırımı iddialarını izah edən 650-dən çox korporativ və şəxsi erməni saytı olan "qondarma soyqırım" ilə tanıdılmaqla və Türkiyəyə qarşı fəaliyyətlərə zamanında qatılmışdır. (Akgönül, 2002: s.243).

Lobbiçiliyin vətəni olan ABŞ-da lobbiçi sözü 1839-cu ildə ilk dəfə istifadə edilməyə başlanmışdır. Vaşinqtonda 120.000-dən çox lobbiçi və 8.000-dən çox şirkət tərəfindən (illik büdcəsi 5 milyard dollardan çox olan) bu fəaliyyətlər müxtəlif yollar ilə həyata keçirilir. Ən çox fəal olan ve önə çıxan 4 lobbiçilik qrupu var ki onlar yəhudi lobbiçiliyi ve Erməni lobbiçiliyidir. ABŞ-da olan lobbiçilik

fəaliyyətlərində, bu ölkələr Amerikadakı öz beynəlxalq maraqlarını qorumaq üçün çox peşəkar şəkildə işləməkdədir. Ən intensiv şəkildə lobbiçilik fəaliyyətini istifadə edən İsrail və Ermənistan ölkələridir. (Yılmaz, 2010: s. 10)

Lobbiçilik fəaliyyəti siyasətin hər mərhələsində fəal və əhəmiyyətli rola malikdir. Belə məqamda belə bir sual yaranır ki, dünyada nüfuzu təxmini 8 milyon ətrafında olan Ermənilər necə olur ki bu qədər fəal şəkildə lobbiçilik edə bilirlər? Diaspor Erməniləri, 15 ölkədə qondarma soyqırımın tanınmasını təmin etmişdi. Ermənilərin uğurlu 5 xalq diplomatiyası və təsirli lobbiçilik fəaliyyətləri ilə xüsusi ilə Fransa və Amerikada yaxşı təşkilatlar, kino, jurnal və kitab kimi müxtəlif təbliğat fəaliyyətləri ilə ölkələrdəki səlahiyyətliləri orqanları inandırmaq, qısaca işi möhkəm tutmaqları bu uğuru gətirir. Diaspor Ermənilərinin qondarma soyqırım iddialarından bəhs edən 26 min kitab nəşr etdikləri məlum olmaqdadır. Xüsusi ilə Ermənilərin 19-cu əsrdə Amerikaya köçmələri ilə Amerikada türk əleyhdarı bir erməni cəmiyyət yaranmağa başladı. Buna ən son nümunə budur ki, Obamanın seçki kampanyaları zamanı Erməni soyqırımını tanıması vədidir. Bu vəziyyət Ermənilərin Amerikada nə dərəcədə effektiv lobbiçiliyinin olduğunun göstərə bilir. (Yılmaz, 2010: s. 2)

Bəs ölkəmizdə necədir lobbiçilik fəaliyyəti? Sualına gəldikdə isə təəssüf ki, ölkəmiz lobbiçiliyin əhəmiyyətinin fərqində olmasına baxmayaraq bu mövzuda çox təfərrüatlı bir sistem qurmamışdır. Tarixi faktlar ölkəmizdə lobbiçiliyin 20-ci əsrin əvvəllərindən yarandığı fikrini söyləmək üçün səbəb verir. XX əsrin 20-ci ilində AXC süqut etdikdən sonra xaricə getmiş millətimizin siyasi addımlarını lobbimizin əsasıdır demək olar. Bu cür söyləmək düzgündür ki, XX əsrin 20-23-cü illərində San-Remo, London və Genuya, Lozanna konfranslarında olan azərbaycanlılar tərəfindən ölkəmizin milli-siyasi siyasəti müdafiə edilərək lobbiçiliyin başqalanğıcı olmuşlar. Avropada, Türkiyədə fəal fəaliyyətə məxsus Azərbaycan diasporunun başlıca hədəfi mətbuat olmuşdur. Ancaq həmən lobbiçilik qanun ilə tənzimlənməmişdir. 1991-ci ildən sonra ölkəmizin lobbiçiliyi çox zəif inkişaf etmişdir. (Babanlı, 2012: s. 4)

1990-cı illərin sonları isə Azərbaycan neft ehtiyatı ilə dünya dövlətlərinin, əsasən ABŞ və Qərbin diqqətini cəlb edirdi. Ölkəmizdəki neftin dəyərinin

yüksəlməsi ölkəmizin regionda geosiyasi baxımdan nüfuzunun artmasına kömək oldu. Xüsusi ilə on bir ən böyük neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" bu prosesləri daha da inkişaf etdirdi. Dövlətimizin nüfuzunun yüksəlməsi Azərbaycan diasporunun aktivləşməsinə və diasporun lobbiçiliyə qoşulmasında vacib əhəmiyyət daşıdı. Türk, yəhudi lobbisinin isə zamanla dəstəklədiyi Azərbaycanın yeni-yeni yüksələn lobbisi bir sıra məqamlarda uğurlar qazananırdı. 17.03.2003-cü il tarixində Böyük Britaniyada fəaliyyətdə olan Azərbaycan lobbisinin Qarabağ münaqişəsi və Bakı-Tbilisi-Ceyhan dəhlizilə və digər məsələlərlə əlaqədar baş tutan tədbirlər yüksək və tarixi uğur olaraq nümunə göstərilə bilər. Bu hadisədən sonra Böyük Britaniya parlamentində "Xocalı soyqırımı" ilə bağlı sənədin təsdiqlənməsi ölkəmizin doğrularının beynəlxalq aləmə duyurulmasında vacib əhəmiyyətə sahib olmuşdur.

9-10 noyabr 2001-ci il tarixində bizim ən qürurlu günlərindən biri olmuşdur. Həmin gün dünyanın beş qitəsində yaşayan azərbaycanlıların iştirak etməsiylə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı baş tutmuşdur.

Hər kəsə məlumdur ki, beynəlxalq lobbizm dövlətin iqtisadi və siyasi strategiyasının bir hissəsini yüksəldən və bütünlüklə mədəni növüdür. Azərbaycana görə də lobbizmin olduqca vacib, eyni zamanda da aktualdır.Hal-hazırda xaricdə yaşayan Azərbaycan diasporu çox əhəmiyyətli gücə sahibdir. Bu kütlənin əsası Cənubi azərbaycanlılar və Türkiyə azərbaycanlılarıdır. Hər biri fərqli ictimai assosiasiyalarda, milli icmalarda olarsa, əlbəttə ki, bizim ölkənin siyasi və iqtisadi cəhətdən lobbiçilik fəaliyyətində vacib rola sahib ola bilərlər. Qeyd olunanları nəzərdə tutmaqla Azərbaycanda lobbizmi tənzimləyən qanun layihəsinin işlənib hazırlanması, dövlətə, parlamentə təqdim edilməsini fikrimcə mühimdir. Ümumiyyətlə lobbiçilik fəaliyyətinin necə keçirilməsi belə də qeyd oluna bilər ki, ilk növbədə Azərbaycanın davamlı olaraq bir lobbiçilik və reklam siyasətinin daha da inkişaf etdirilməsi yaxşı olar. Yəni lobbiçiliklə bağlı dərin siyasətin formalaşdırılmaması önəmli problem olaraq görünməkdədir. Bununla yanaşı bizim lobbiçilik anlayışımız ümumiyyətlə fərdi əsaslı səfərlər, sektoru təmsil edən və üzvü olan birliklərin və s. qurluşlarla əməkdaşlıq ilə hərəkət edilməsi və açıq hava

görüşləri, sakit gəzintilər, mətbuat konfranslarından ibarətdir. Bu formada olan fəaliyyətlərin müasir texnologiya və kommunikasiya dövründə kifayət qədər təsir etməyəcəyinin fərqində olmağımız yaxşı olar. Bundan əlavə təşkil olunacaq hər hansı bir lobbiçilik fəaliyyətində təşkilatçının, təbliğatın bir qaydasınınn olması və doğru hədəflər seçilərək addım atılmasının vacibliyi çox büyükdür. Məqsəd ancaq xaricdəki Azərbaycan vətəndaşlarına varlığını hiss etdirmək ya da onları bir araya gətirməkdən daha çox xarici auditoriyaların hədəf seçilərək onlara təsir etmək məqsədi ilə hərəkət etmək olması daha uyğun olar. Bir ölkədə fəaliyyət göstərən siyasi partiyalar, qruplar, yazarlar, rəssamlar və s. lobbiçilik səylərində hədəf seqment olmalıdır.

Azərbaycanın mədəniyyət, turizm və incəsənətlə tanıdılması üçün təşkil ediləcək fəaliyyətlər də lobbiçilik fəaliyyətinin digər qolunu təşkil edir. Bu mövzudakı çatışmazlıqlar sürətlə tamamlanmalıdır. Bizi kənardan yanlış anlayıb bizə qərəzlə baxanlara qarşı ciddi bir tanıtım siyasətinə riayət etmək bu qərəzləri və lobbiçiliyi qırmağın başqa təsirli yolu olacaqdır. Təəssüf ki, ölkəmizin xarici tanıtım və lobbiçilikdə çox aktiv ola bilmədiyini hər il Ermənilər bəzi dövlətlərin məclislərinə gəldikdə ya da bizim əleyhimizə zidd qərarlar alındıqda daha çox diqqət edilir. Türkiyə üçün lobbiçilik fəaliyyətinin dövlət siyasətinə çevrilməsi prioritet məsələ olması yaxşı olardı. Məhşur bir lobbiçinin söylədiyi bu söz heç bir zaman yaddan çıxmamalıdır; "Qazanan ən yaxşı olan deyil, lobbiçilini ən yaxşı edəndir".

Qeyd edilən hər bir nüanslardan bu nəticə söylənilməlidir ki, diasporun və lobbinin başlıca məqsədi yaşadıqları, fəaliyyətdə olduqları dövlətlərin adətlərinə, qanunlarına əməl edərək, milli mənəviyyatı qorumaqla, milli xüsusiyyətlərini təbliğ etməkdən ibarət olmalıdır. Eyni zamanda, həmən proseslər millətlər arasındakı sosial-mədəni münasibətlərin formalaşmasında və ölkələr arasındakı siyasi-iqtisadi əməkdaşlığın inkişaf etməsində kömək olmalıdır.

Müasir dövrümüzdə həmçinin də medya və medya vasitəsi ilə həyata keçirilən təbliğat olduqda əhəmiyyətli olmuşdur. Təbliğatın xalq arasında təsirli olduğu anlaşıldıqda ixtidarlar məqsədlərinə çatmaq üçün təbliğat savaşı verməyə başlamışlar.

KİV vasitəsilə həyata keçirilən təbliğatın təsiri ilə əlaqədar bir neçə alimlər araşdırma prosesi həyata keçirmişlər və onların araşdırmaları müxtəlif nəticələr vermişdir. Medyanın fərd və topluluqlar arasında təsiri mövzusunda aparılan ilk araşdırmalarda (Lippmann, 1922; Lasswell, 1927; Mill, 1975) alıcı vəziyyətindəki fərdlərin rolları kiçildilmişdir. Mövzu ilə bağlı araşdırmalarda medya mesajları qarşısında gücsüz qaldıqları və asandlıqla manipulyasiya edildikləri iddia edilmişdir. Ancaq xüsusi ilə Lazarsfeldin araşdırmalarında medyanın ictimai yaşamı dərindən təsir edə biləcəyi fikiri qeyd edilmişdir.

80-ci illərdə isə Noelle Neumann'ın etdiyi emprik araşdırmalar ilə medyanın vasitəsi ilə həyata keçirdilən təbliğatların kütlə üzərindəki təsirlərin hesab edildiyinin əksinə olaraq çox böyük olduğu sübut olunmuşdur. Bektaşa görə təbliğat, "fərd ya da qrupların fikir, qənaət ya da davranışlarına təsir etmək məqsədinə yönəlmiş ünsiyyət olaraq qeyd edilə bilər". Brown isə təbliğatı daha geniş olaraq ələ alaraq "bütün ünsiyyət, təhsil və mədəniyyət mövzularında insan davranışlarını izləmək ve yönləndirmək üçün həyata keçirilən sistematik fəaliyyətlərdir" şəkilində qeyd edilməkdədir. (Ateş, 2000: s. 117-119)

Təbliğat üsulları və üslubları həm totalitar, həm də demokratik rejimlərdə şəkildə inkişaf etdirilmiş və təkmilləşdirilmişdir.

**Cədvəl 1: Ünsiyyət müddətinin psixodinamik işləmi**




**Mənbə**: (Ateş Ş., Bir siyasal iletişim tarzı olan propagandanın tanınması ve propaganda metinlerinin çözümlenmesi 2000: s.121)

Təbliğatlar bizə dünyanı və hadisələrə necə rəy bildirməyimiz lazım olduğunu göstərərlər. Təbliğatçılar nail olmaq istədiyi məqsədi çox gözəl şəkildə ictimaiyyətə qəbul etdirə bilmə bacarığına sahibdirlər. Lakin ictimaiyyətin bəzi toplumu bunu fərqli yönümlü qəbul edə bilər. Bunun üçün hadisələr qarşısında müəyyən bir duruşu, dünyadakı hadisələrə rəy bildirmə məntiqi və azad iradəsi olması vacibdir.

Bu səbəblə də haqq yolunda apardığımız təbliğat üçün savadlı kadrların yetişdirilməsi vacib əhəmiyyət daşıyır. Hansı ki, uğurlu layihəri, tədbirləri həyata keçirmək üçün bu gənclərə və onların fikirlərinə ehtiyyac var.

Müasir təbliğatçılar birbaşa yalan danışmağa üstünlük vermirlər. Lakin həqiqəti söyləmək, düzgün təsviri yazmaq və ya göstərmək, sübut etmək üçün həqiqətin bir hissəsini verirlər. Təbliğatçının nöqteyi-nəzərindən seçilmiş "faktlar" vurğulanır və mesaja əlavə edilir.

**Cədvəl 2**: Təbliğatçıların həqiqəti çevirmə modeli:




**Mənbə**: Ateş, 2000: s. 123

Cədvəldən də göründüyü kimi təbliğatçılar həqiqət içindən sadəcə bir hissəni alarlar və öz məqsədlərinə nail olmaq üçün həmin hissəni dəyişib başqa bir mövzu yaradarlar. Həmən mövzunu öz strategiyalarına uyğun olan formada elə böyüdərlər ki, həqiqətin heç bir anlamı qalmaz. Bu və digər bir çox səbəblə də dövrümüzdə təbliğatın böyük bir rolu vardır.

Təbliğatdan bəhs edərkən onun əsas vasitələrini də qeyd etmək olduqca önəmlidir. Çünki, bu vasitələrdən istifadə olunaraq ictimaiyyətə, xarici auditoriyaya müraciət olunur. Həmin əsas vasitələr aşağıdakılardır:

Qəzet - I və II Qarabağ müharibəsi zamanında da bu vasitədən geniş istifadə olunmuşdur. II Dünya Müharibəsi illərində də ictimaiyyət üçün əsas informasiya mənbəyi qəzetlər idi. Onlardan təbliğat üçün geniş istifadə olunmuşdur. Hitler də qəzetdən maksimum dərəcədə təbliğat vasitəsi kimi istifadə etmişdir.

Radio - Radio, televizyanın insanların gündəlik həyatını bu qədər işgal etmədiyi, oxuma-yazmanın tam olmadığı və qəzet çap edib dağıtmağın asand olmadığı

vaxtlarda fərdlərin istifadə etdiyi ən təsirli ünsiyyət vasitəsi olmuşdur. Bu təbliğat vasitəsi xüsusən I Qarabağ müharibəsində daha çox istifadə olunmuşdur. Çünki həmin vaxtlarda internet, televizya II Qarabağ müharibəsi zamanındakı kimi inkişaf etməmişdi.

TV - 20-ci əsrin effektiv vasitələrindən biri olmuşdur. II Qarabağ müharibəsi zamanında Prezident İlham Əliyev televizya vasitəsi ilə xalqımıza müraciətlər etmiş və qələbəyə köklənmişdi. İşğaldan azad olunan doğma ərazilərimizin xəbərini televizyadan vermişdir. Bu da xalqa ruh yüksəkliyi verirdi.

Afişalar – II Dünya Müharibəsində Almaniya, İtalya ve Sovetlər Birliyi tərəfindən təsirli bir təbliğat məqsədli istifadə olunmuşdur. Həmçinin, təbliğatın bu növündən xaricdə yaşayan soydaşlarımız, Azərbaycan diasporu istifadə edibdir. Onlar əllərində II Qarabağ müharibəsi zamanı afişalar tutaraq yürüşlər həyata keçiriblər. Bu haqqda dissertasiyanın bu fəsilinin sonlarında qeyd olunubdur.

İnternet - ortaya çıxdığı gündən bu yana dəyişərək inkişaf etməkdə, istifadəni hər keçən gün daha da artırmaqdadır. Dünya nüfusunun təxmini yarısının istifadə etdiyi internet, günümüzdə təbliğat məqsədi ilə aktiv bir şəkildə istifadə olunmaqdadır. İnternet təbliğat vasitəsindən xüsusi ilə II Qarabağ müharibəsi zamanı geniş istifadə olunmuşdur. Baxmayaraq ki, internetə giriş məhdudlaşdırılmışdı, biz informasiya savaşında da düşmənə qalib gəlmişdik. Həştəqlər yaradılmış, dünyaya haqq səsimizi çatdırmağa çalışmışdıq. Həmçinin də, Prezident İlham Əliyev bəzi rayonlarımız işğaldan azad olduqda öz Tweeter səhifəsi vasitəsi ilə həmin sevincli xəbərləri vermişdi.

Təbliğatın vasitələrin qeyd etdikdən sonra növlərin də qeyd etmək olduqca önəmlidir. Həmin növlərə aşağıdakılar aiddir:

Xarici təbliğat - xarici siyasətin aparılmasında çox vacibdir. Xüsusilə dövlət tərəfindən həyata keçirilir. Lakin son illərdə lobbilərin mövcud olduğu ölkələrdə effektivliyini artıran bu aktor beynəlxalq siyasətin qurulmasında da istifadə olunur. Bu təbliğatdan istifadə edilməsində mühüm yer tutmuşdur. Bununla belə, xarici təbliğat aparılarkən ictimai dəstək çox vacibdir. I Qarabağ müharibəsi dövrünə nisbətdə II Qarabağ müharibəsi dövründə xarici təbliğat daha güclü həyata

keçirilmiş və müsbət nəticələr vermişdir. Belə ki, II Qarabağ müharibəsi zamanlarında həm daha çox xarici dövlətlərdən həm də, daha çox xarici ictimaiyyətdən dəstək görmüşük.

Daxili təbliğat - xüsusilə seçki dövrlərində görünür. Güc və ya Müxalifət partiyalarının sədrləri, mətbuat nümayəndələrini seçərkən natiqlik və inandırma gücü yüksək insanlara üstünlük verir.

İqtisadi təbliğat: bir ölkənin beynəlxalq münasibətlərdə ümumi marağı həmin ölkənin iqtisadi siyasətini əks etdirən təbliğat növüdür. I Qarabağ müharibəsi zamanından nisbətdə II Qarbağ müharibəsi zamanında iqtisadi inkişafımız xeyli yüksək olmuşdur. Bu da həm beynəlxalq münasibətlərdə həm də, iqtisadi təbliğatda yüksək müsbət təsirləri olmuşdur.

Mədəni təbliğat: millət, din; başqalarının rəğbətini qazanmaq üçün seçilmiş təbliğat növüdür. Xüsusilə də Osmanlı İmperatorluğunun sonunda, həmin dövrdə fransız və amerikalı missionerlər tərəfindən açılan məktəblər və məktəb kilsələr bu tipdir. Qarabağ haqqında çəkilən hər bir sənədli filmlər, mədəni tədbirlər bu təbliğat növünə aid ola bilər. Məsələn: 24.12.2018-ci il tarixində "Qarabağ: Əcdadlarımızın mirası" filmi və Gənclər və İdman Nazirliyinin dəstək olması ilə hazır olunmuş "Cəbrayıl - virtual səyahət" filmi bu təbliğat növünə nümunədir.

Hərbi təbliğat: Güclü və kifayət qədər hərbi resursları olan demək olar ki, hər bir dövlət bu gücü müxtəlif yollarla başqa ölkələrə göstərmək istəyir. Beynəlxalq təlimlər, hərbi paradları hərbi təbliğat anlayışına daxil etmək olar. II Qarabağ müharibəsindəki qələbəmizdən sonra Azadlıq Meydanında həyata keçirilən parad bu təbliğat növünə aiddir. Hansı ki, bu paradda yeni hərbi texnikalarımız, müasir ordu quruculuğumuz nümayiş olunmuşdur.

Ümumi təbliğat: Ümumi təbliğat böyük kütlələrə müraciət edən əhatə dairəsinə görə ən böyük auditoriyaya malikdir.

Məhdud təbliğat: Ölkənin müəyyən bölgəsində baş verən narazılığı yatırtmaq və ya bölgə əhalisini müəyyən istiqamətə yönəltməkdir. Bu, təbliğat xarakterli bir hərəkətdir. Daha çox iqtisadi məqsədlər ön plandadır. Saxlanılan məhdud təbliğat siyasəti birbaşa iqtisadiyyata təsir edir və təsirlənmiş ərazilərdə görünür.

Şəxsi təbliğat: fərdlər üçün edilir, ən çox istifadə edilən sahə xarici siyasətin həyata keçirildiyi sahədir. Aparılan təbliğatı tək adam edə bildiyi kimi; bir nəfər üçün edilə bilər. Məsələn, İraq müharibəsi zamanı edilən bir çox hərəkətlər Amerikaya qarşı deyil, prezident Corc Buşa yönəlmişdi. Qarabağ müharibələri zamanı da daha çox dövlət başçılarına yönəlmişdi bu təbliğat növü.

Ağ Təbliğat: Mənbənin rəsmi, etibarlı və asanlıqla əldə olunduğu təbliğat növüdür. Resursları qəbul edərkən və ya verərkən çox diqqətli olmaq lazımdır. Mənbədə ən kiçik bir şübhə böyük problemlər yarada bilər. Bu, əsl bilinənin müdafiə olunduğu bir təbliğat növüdür. Ağ təbliğat Xarici İşlər Nazirliyinin açıqlamaları və internet təbliğat nümunələrinə verilə bilər. Qarabağ müharibələri zamanında da bu təbliğat növünü daha çox rəsmi dövlət mənbələrində idi. Dövlətimiz xalqa, ictimaiyyətə yalnız rəsmi mənbələrə inanmağa səslənmişdilər.

Qara təbliğat: Əsassız, yalan və mənbələri bilinməyən bir təbliğat növüdür. Hər biri hər cür yaradıcı fəndləri əhatə edir və həyata keçirildikdə böyük maraq doğurur. Xüsusilə müharibə zamanı psixoloji təzyiq vasitəsi kimi istifadə olunur. İkinci Dünya zamanı, Hitler və Stalinin müharibə zamanı istifadə etdiyi təbliğat növüdür. Qısaca qara təbliğat  ağ təbliğatın tam əksidir. Ermənilərin sözdə Soyqırımı ortaya atmaqlarının önəmli bir səbəbi də kimlik problemləridir. Ermənilərin tarix boyunca iz buraxan bir dövlət qurmadıqları bilinməkdədir. Bu vəziyyət Erməni birliyi üçün vacib bir problem təşkil etməkdədir. Ermənilər bu problemi 1915 tarixli deportasiya qanununun soyqırım etməyə yönəlik olduğunu vurğulayaraq 1920-dən etibarən başladdıqları qara təbliğat ilə özlərinə bir kimlik axtarmaqdadırlar.

Boz Təbliğat: Ağ və qara təbliğat arasında sıxışdırılmış təbliğat üsuludur. Bu tip təbliğatda xəbərin və ya mesajın mənbəyi bəzən aydın olur. Aşkar olduğu halda, bəzən gizlədilir. Bu səbəblə xəbərlər verilir və ya ötürülür. Mesajın etibarlılığı sual altında qalır. Bu cür təbliğatda çox vaxt yalan və reallıq bir-birinə qarışıq olur. Bu təbliğat üsulu ilə verilən mesajlar şişirdilir vəcəlbedici hala gətirilir.

Mədəni təbliğat: Keçmişdən bu günə mədəni əlaqələr, incəsənət və elmi fəaliyyətləri ilə digər ölkələrə təsir etmək üçün və bütün dövlətlərin prestij qazanmaq üçün

istifadə etdiyi üsuldur. Fransa xüsusilə 1930-cu illərin əvvəllərindən bu sistemdən ən çox istifadə edən dövlətdir.

Bütün bu təbliğatlar kimi həyata keçirilən hər bir təbliğatın öz məqsədi mövcud olur. Hansı ki, həmin məqsəd üzrə yola davam edilir. Onlardan biri dost (müttəfiq) dövlətlərin dəstəyini qazanmaq və ya gücləndirmək məqsədidir. Bu yolla təbliğat aparan özünə dəstək əldə etmək istəyir. Düşmənə və ya rəqibinə qarşı beynəlxalq legitimlik əldə etmək, təbliğat aparmaq üçün çox vacibdir. Qarabağ münaqişəsində də qarşı tərəfi dəstəkləyən və ya dəstəkləməyən müttəfiq dövlətlər olmuşdur. Türkiyə-Azərbaycan dövlətləri dostluqdan, mütəffiqlikdən daha çox qardaşlıq münasibətindədirlər. Daha bir qardaş dövlət Pakistan II Qarabağ müharibəsində Azərbaycana dəstəyini aydın şəkildə göstərmişdi. Fransa isə bu münaqişədə işğalçı Ermənistanı dəstəkləyib. Yunanıstan da II Qarabağ müharibəsi zamanı Ermənistana dolayı dəstək verib.

Təbliğatın digər məqsədi hadisələrə və ya ideyalara münasibət formalaşdırmaq və ya dəyişməkdir. Bu zaman təbliğatçının möhkəm əqidəsi olmalıdır. Ermənistan rəhbərliyi hər zaman Qarabağ münaqişəsinin gerçəkliklərindən fərqli olan modelinin formalaşdırılmasında həmçinin də erməni toplumunun, dünya ictimaiyyətinin beyninə təzyiq etməkdə məqsədlidir.

Növbəti məqsəd isə düşmənə (rəqibə) yol açan dövlətlərin proqram və siyasətlərini zəiflətmək, deaktiv etməkdir. Düşmənlə yaxşı münasibətdə olan dövlətlər üzərində iqtisadi güc və yaxud üçüncü ölkənin hərbi təzyiqdən istifadə edərək geri çəkilməsini təmin etmək vacibdir. Ancaq bunu edərkən diqqətli olmaq lazımdır. Çünki,  uzun müddətdə istənilən platformada görünə bilər.

Beləliklə, sanki bu gün elə bir sahə yoxdur ki, orada təbliğat aparılmasın. Dünyanın internet və kompüterin klaviaturası vasitəsilə insanın əlinə yerləşdiyi dövrdə təbliğatın varlığına məhəl qoymamaq və uyğun olduğu bir zamanda biganə olmaq mümkün deyildir. Çünki, bəşəriyyətin xidmətinə qoyulan hər bir yeni texnologiya, insanların rahatlığına üstünlük verməkdənsə, sui-istifadə üçün istifadə olunur. Təbliğat anlayışı “doğru” və ya “yanlış” kimi olmaqla qeyri-obyektiv dəyər mühakimələrindən ibarətdir və müstəqil şəkildə idarə olunmalıdır. Qarabağ

münaqişəsinin idarə edilməsində də təbliğatın rolunun olduqca yüksəlməsi müasir qloballaşan dünyamızda təbliğatın əhatə dairəsinin, az bir müddətdə daha böyük kütləyə təsir etməyin yüksəlməsi ilə bağlıdır. Qarabağa aid təbliğat mahiyyəti yüksək olduğundan bu tədqiqat işində də daha çox təbliğat istiqaməti diqqət mərkəzindədir.

### 1.2. İşğaldan əvvəlki illərdə əsas iqtisadi göstəricilərinin təhlili

Azərbaycanın qədim tarixə məxsus və əzəli torpaqlarından biri elə Qarabağdır. Qarabağ Kiçik Qafqaz dağları və Kür və Araz çayları arasındakı torpaqlarda yerləşir. Azərbaycanın bu ayrılmaz hissəsinin adı iki fərqli Azərbaycan sözündən ibarətdir: "qara" (qara, böyük) və "bağ" (bağ, torpaq). Bu iki sözün birləşməsi Azərbaycan xalqı qədər qədimdir. Bu iki birləşmiş sözün dünyanın hər bir yerində Azərbaycanın müəyyən hissəsi ilə əlaqələndirilməsi bir kəlamdır. Xalqımızın özünə məxsus olan əziz ərazilərinin bir hissəsinə məxsus olan Qarabağ kəlməsi ilk dəfə 1300 il öncə (VII əsrdə) istifadə olunmuşdur. İlk əvvəl Qarabağ tarixi-coğrafi tərif kimi istifadə olunsa da, sonralar transformasiyaya uğrayaraq daha geniş coğrafi ərazini əhatə etmişdir. Mənbələr və qaynaqlar sübut etmiş ki, Qarabağ Azərbaycanın siyasi və ictimai həyatında vacib rol oynayırdı. (Hüseynov, 2018: s. 15-16)

Tarixi Azərbaycan ərazilərinin mərkəzində olan Qarabağı ermənilər 1988-ci ildən sonra "Artsax"olaraq adlandırmışdılar. "Artsax" sözü bu bölgənin ermənilərə aid olması mənasına qətiyyən gəlmir, əksinə olaraq bu kəlmənin etimologiyası türklərin daha əzəldən burda məskunlaşdığın müəyyənləşdirir. Artsax Azərbaycanın zamanında Albaniya dövlətinin müəyyən hissəsini əhatə edirdi və ermənişünas olan alim professor görkəmli Mirəli Seyidöv 70-80-ci il tarixlərində yazıb araşdırma həyata keçirdiyi əsərlərdə, "Artsax" sözünün türklərə məxsus olmağını sübuta keçirmişdi. (Çaxmaqlı, 2009: s.7)

**Cədvəl 3: Demoqrafik vəziyyətə dair bəzi statistik məlumatlar**

| | **1988** | **1989** | **1990** |
|---|---|---|---|
| **Keçmiş DQMV** | | | |
| Əhalinin sayı (ilin sonuna), min nəfər | 189 | 193,7 | 194,6 |
| Təbii artım, nəfər | 2687 | | |
| Doğulanların sayı, nəfər | 4137 | | |
| Ölənlərin sayı, nəfər | 1450 | | |
| Nikahların sayı | 1165 | | |
| Boşanmaların sayı | 154 | | |

**Mənbə**:(Azərbaycan Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir,https://mail.google.com/mail/u/0/?tab=rm&ogbl#inbox/FMfcgzGllMLMCjhBpwTFjfnfjDsbhdNq)

Göründüyü kimi Qarabağda 1980-ci illərdə əhalinin sayı 194 min nəfərədək olmuşdur.

Qarabağ təkcə Azərbaycanın deyil, bütün dünyanın ən qədim bölgələrindən biridir. Ən qədim insan məskəni bu rayonun Azıx mağarasında tapılıb. Bu, Azərbaycanın Qarabağ, Aralıq dənizi ərazisi və Şərqi Afrika ilə bərabər bəşəriyyətin beşiklərindən biri olmasını sübuta yetirir. Azıx insanı-Azıxantropunun çənə sümüyü 1968-ci il tarixində Azıx mağarasının Aşel təbəqəsində tapılıb. Azıxantropun 350-400 min il bundan öncə yaşaması ehtimal edilir. Qarabağın küt mədəniyyətini əsasən Tağlar mağarası təmsil edirdi. Alimlər aşkara çıxarmışlar ki, qədim insanlar Azıx mağarasına 2,1 - 2,4 milyon il bundan öncə köç etmişlər. Bu hadisəni çay daşı mədəniyyəti sübuta yetirmişdir. Həmin qədim insanların yaratmış olduğu mədəniyyətə isə «Quruçay» mədəniyyəti adı verilmişdir. Bu mağaranın lap qədim zamanına məxsus ərazilərində İbtidai insanların istifadə etdiyi daş alətləri tapılıbdır. Həmin alətlər çay daşlarından hazır edilmişdir. (Qəniyev, 2019: s. 22)

Coğrafiyaşünas toponimşünas olan Rəmzi Yüzbaşov «QARABAĞ» toponiminə məxsus əhəmiyyətli rəylər qeyd etmişdir. R.Sədiyev isə Qarabağ torpaqlarında 228 yaşayış obyekti adını, 28 su ərazi adını, 33 oronim (oronimdüzəltmə formalı coğrafi yer kəlməsi deməkdir), ümumi 239 toponim vacib hesab edərək onları təhlil etmiş və yararlı elmi nəticələr əldə etmişdir.

Qarabağ xanlığının iqtisadi sferasının bir neçə sahələri - ticarət, sənətkarlıq, pul dövriyyəsində az olmasına baxmayaraq salnamələrin bir neçəsində mövcud idi. Eyni

zamanda, iqtisadiyyatında əkinçilik və maldarlıq sahələri vacib yer tuturdu. Qarabağ xanlığı Rusiya vasitəsi ilə istila olunduğu zamanda xanlığın kompleks torpaq ərazisi təxmini 1.354.000, əkinə lazım olan torpaq ərazisi isə 100.000 desyatin olmuşdur. Qarabağ xanlığının iqtisadi həyatında ipəkçilik təsərrüfatı da yüksək rol oynayırdı. (Hüseynov, 2012: s. 108)

Qarabağda xalçaçılıq da inkişaf etmişdir. Qarabağ xalçalarının ümumilikdə 33 kompozisiyası var. Yerli qoyun cinslərinin yununun xüsusiyyətlərinə görə Qarabağ xalçaları sıx, hündür və yumşaq xalçaya malikdir. Qarabağ xalçaları həyat eşqi olan, parlaq rəngləri ilə seçilir. Onlar dörd qrupa bölünürlər: medalsız, medalyonlu, namazlıq və süjetli. Bu xalçalar Qarabağın dağlıq hissəsində Malıbəyli, Daşbulaq, Cəbrayıl, Muradxanlı, Horadiz və bir çox başqa yaşayış məntəqələrində istehsal olunub.

Xalq dastanının qəhrəmanı, Şərqin görkəmli şairi Firdovsi nin "Şahnamə" poemasnda baş qəhrəman Rüstəmə həsr edilmiş Qarabağ xalçaları xüsusi diqqət çəkir. Söhrab və Rüstəm xalçalar seriyası miniatür rəngkarlığa əsasən ənənəvi kompozisiya prinsiplərinin xalq ruhunda təsviri ilə diqqət çəkməyə layiqdir. Bu nümunələr bədii xüsusiyyətlərinə, öz ideyalarına əsasən xalq xalçaçılıq sənətinin tayı-bərabəri olmayan dəyərləridir.

Qarabağ tarix ərzində Azərbaycanla mənəvi, sosial, mədəni, iqtisadi əlaqələr vasitəsi ilə möhkəm bağlı olmuşdu və elə Azərbaycan Respublikasının səyi ilə bu torpaqlar iqtisadi-sosial və mədəni inkişaf etmişdir. Buna misal olaraq göstərilə bilər ki, Qarabağ ərazisinin Aran bölgəsində nəzərdə tutulmuş Toxuculuq Kombinasiyasının Xankəndində inşa edilməsi qərarı alınmışdı. 50-60-cı il tarixlərində ipəkçilik sahəsinin inkişaf etdirilməsi məqsədi ilə iki dəfə məbləği artırmışlar. DQMV-də olan ipək emalı obyektinin işini daha da yaxşı etmək məqsədi ilə 50-60-cı il tarixlərində barama istehsalı 70 faiz artmışdı. 1940-cı ildə 114 ton olmuşdusa, 1960-cı ildə isə 186 tona çatmışdı. Ancaq bu göstərici də Qarabağ İpək Kombinatının tələbatınına yetərli olmurdu. Azərbaycanın kənarındandan da barama və ipək əldə edilirdi.

Qarabağ İpək Emalı müəssisəsi 1950-1953-cü il tarixlərində inşa olunmuş və əhəmiyyətli fabrik olmuşdur. Həmin bu fabrikdə ipək sap, xam ipək, rənglədilmiş parça istehsal olunurdu. 1970-ci ildə isə DQMV-nin ipək emalı fabriklərində 3 min insandan çox işçi işləyirdi. Fabrikdə işləyən işçilərə çox yüksək maaş verilirdi. Az zaman ərzində Xankəndində 400 mənzil təşkil edən, yaşayış üçün 14 bina inşa edilib təqdim edilmişdi. Tək həmin fabrikdə 400 yerlik uşaqlar evi, xəstəxana, mədəniyyət mərkəzi, kitabxana, istirahət mərkəzləri, pioner obyekti var idi.

Aşağıdakı cədvəl dörddən də göründüyü kimi əhalinin rifahı il keçdikcə yaxşılaşdırılırdı o vaxta qədər ki, müharibə başlayan müddətə qədər. Əgər müharibə olmasaydı bu bölgəmizdə, öz əzəli torpaqlarımızda o zaman iqtisadi, mədəni potensiyalı ilə indi yaxın bölgələrdən, ölkələrdən seçilən bir bölgə kimi inkişaf edərdi.

**Cədvəl 4: Məşğulluq və əmək haqqına dair bəzi statistik məlumatlar**

| | **1988** | **1989** | **1990** |
|---|---|---|---|
| **Keçmiş DQMV** | | | |
| Məşğul əhalinin sayı*, min nəfər | 69,7 | 70,3 | 28,3 |
| Orta aylıq əməkhaqqı, rubl | 134,9 | | |

Məşğul əhaliyə kolxozçular, fəhlələr və qulluqçular daxildir (1988-1990-cı illər üzrə).
**Mənbə**: (Azərbaycan Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir,https://mail.google.com/mail/u/0/?tab=rm&ogbl#inbox/FMfcgzGllMLMCjhBpwTFjfnfjDsbhdNq)

Qarabağda yeyinti sənayeləri xüsusi ilə də şərabçılıq tüz bir zamanda inkişaf edirdi. Azərbaycan burda şərabçılığm sənaye istiqamətində inkişafını yüksəltmişdi. Şərabın birinci emalı müəssisələri Qarabağın hər sahəsində var idi. Qarabağ Şərab Tresti tək SSRİ-də yox, həm də bütün dünyada tanınırdı. Həmin trest ümumilikdə sənaye məhsulunun 34%-ni təqdim edirdi. Yağ-pendir müəssisəsi, Elektrozavod müəssisəsi, Xalçaçılıq fabriki (1929), yerli xammal olan tikinti vəsaitləri zavodları, meşə kombinatları, şəhər və kəndlərdə olan saysız şəkildə istehsalat müəssisələri SSRİ-də tanınırdı. 60-cı il əhatələrində Azərbaycanda sənaye istehsal olunması hasilatı 94 faiz artıb. 1960-cı illərdə burada investisiya qoyuluşu 20 dəfə çox artdı. (1 milyondan artaraq 20 milyona kimi)

**Cədvəl 5: Kənd təsərrüfatı üzrə statistik məlumatlar**

| | 1988 | 1989 | 1990 |
|---|---|---|---|
| **Keçmiş DQMV** | | | |
| Kolxozların sayı,vahid | 49 | 77 | 87 |
| Sovxozların sayı,vahid | 43 | 37 | 34 |
| Təsərrüfatlararası kənd təsərrüfatı müəssisələrinin sayı,vahid | 7 | 7 | 7 |
| Kənd təsərrüfatı müəssis-in sayı, vahid | 99 | 121 | 128 |

**Mənbə**: (Azərbaycan Dövlət Statistika Komitəsinin materiallar əsasında müəllif tərəfindən tərtib edilmişdir,https://mail.google.com/mail/u/0/?tab=rm&ogbl#inbox/FMfcgzGllMLMCjhBpwTFjfnfjDsbhdNq)

Qarabağın kənd sahəsi də yaxın regionlardan yüksək inkişaf etmişdir. 1950-1960-cı illərdə Qarabağın kənd təsərrüfatının yüksəldilməsi məqsədi ilə uzun zamandan ibarət kreditlər verildi. Az müddət ərzində Dağlıq Qarabağın xalq təsərrüfatına altı dəfə 15 milyon 997 min manat yönəldilib. Bunu araşdırmaçı Nazim Məmmədov qeyd edir ki, 1969-cu il tarixində Azərbaycanda kənd təsərrüfatında çalışan bütün kolxozçunun aylıq gəliri orta hesabla 143 manat təşkil etmişdir.

Kənd təsərrüfatı sahəsindəki uğurları müqayisə etsək, Qarabağ Azərbaycanın digər bölgələrindən üstün idi. Ölkə əhalisinin 2 faizi yaşadığı bura məhsulun 5%-ni verirdi. 1986-cı ildə vilayət əhalisinin adambaşına düşən gəliri 1113,5 manatdan çox olmuşdur ki, bu da bütövlükdə Azərbaycan üzrə 97,8 manat çoxdur, Naxçıvan MSSR-dən isə 170,4 manat artıqdır.

Dövlətimizin DQMV-də həyata keçirdiyi tikinti - abadlıq işləri də sakinlərin yaşayış yerinə malik tələbatını təmin edilməsində geniş rola sahib olmuşdu. 1969-cu ilin informasiyasına əsasən, Qarabağda hər bir şəxsə ortaq məxrəclə 7-8 kv. yaşayış ərazisi aid olurdu ki, o da respublika statistikalarından 2,5 dəfə çox idi. Eyni zamanda, DQMV XDS şəhərsalmaq, tikinti və arxitektura yönündə vəzifələrindən – arxitektura, şəhərsalmaq, ümumi tikinti layihələri, başqa yaşamaq üçün binaların, təzə tikintilərin inşası, həmçinin nəqliyyat, sənaye və başqa məntəqələri yenidən böyütmək, yenidən inşa edilməsi layihəsinə başçılıq edilməklə komleks formada DQMV sahəsində ermənilər olan ərazilər inkişaf etdirilir, bunun əksinə isə

azərbaycanlılar olan ərazilərdə isə sosial məntəqə inşa edilmirdi. Beləliklə, azərbaycanlı yaşayan ərazilər boşalıb məhv edilir və pis hala düşürdü. (Çaxmaqlı, 2009: s. 51)

Aşağıdakı cədvəl altıdan da göründüyü kimi Qarabağ zonasında xeyli sayda müəssisələr, kitabxanalar, xəstəxanalar mövcud olmuşdur.

Azərbaycanın 289 kvadrat kilometr ərazisinin kiçik bir hissəsini əhatə edən, Qədim və şanlı tarixə malik olan Şuşa isə torpağının özünəməxsus təbii, maddi və mənəvi sərvətləri ilə həmişə zəngin və səxavətli olmuşdur. Şuşa min bir dərdin tükənməz və təbii dərmanı, sərin, səfalı yaylaqlar, ləzzətli meyvələr hamını heyran etmişdir. O, bu torpağın bərəkətini, səxavətini, qürurunu, alicənablığını, dostluğunu, qonaqpərvərliyini və s. həm də müsbət insani keyfiyyətlərə malikdir. Əgər müxtəlif cür ensiklopediyalara və lüğətlərə müraciət edərsək, «Şuşa» sözünün mənasının - düzənlik ərazidə ucalan hündürlük, qabarıq məkan, daşlı - qayalı təpə, qala kimi izah olunmasının şahidi olarıq.

**Cədvəl 6: Səhiyyə, təhsil və digər sosial sahələr üzrə bəzi statistik məlumatlar**

| | **1988** | **1989** | **1990** |
|---|---|---|---|
| **Keçmiş DQMV** | | | |
| Xəstəxanaların sayı, vahid | 32 | 32 | 32 |
| Əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı, vahid | 60 | 60 | 60 |
| Muzeylərin sayı, vahid | 7 | 3 | 3 |
| Klub müəssisələrinin sayı, vahid | 272 | 273 | 297 |
| Kütləvi kitabxanaların sayı, vahid | 235 | 240 | 272 |
| Teatrların sayı, vahid | 1 | 1 | 1 |
| Məktəbəqədər təhsil müəssisələrinin sayı | 98 | 97 | 97 |
| Məktəbəqədər təhsil müəssisələrində uşaqların sayı, nəfər | 8321 | 8604 | 8604 |
| Əyani ümumi təhsil müəssisələrinin sayı | 207 | 207 | 207 |
| Əyani ümumi təhsil müəssisələrində təhsilalanların sayı, nəfər | 34681 | 34681 | 34681 |

**Mənbə**: (Azərbaycan Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir,https://mail.google.com/mail/u/0/?tab=rm&ogbl#inbox/FMfcgzGllMLMCjhBpwTFjfnfjDsbhdNq)

Məhşur rus alimi İrina Rakşa həyata keçirdiyi tədqiqatlarda daha da dərinə baş vuraraq sübut etmişdir ki, «Şuşa» adı keçilməz qalalara verilən adlardır. Bu adda yanlız bütün Şərq ölkələrində deyil, həm də Sibirdə, Avropada yaşayan türklərin yaşadığı məskəni olmasını, tarixçi alim Rakşa faktlarla sübuta yetirmişdir. Eyni

zamanda, «Şuşa» kəlməsini kök və şəkilçiyə ayırarıqsa, sözün kökünün məhz türk sözü olmasının şahidi olur və Zori Balayanların «Şuşanın erməni ərazisi və «Şuşa» kəlməsinin erməni mənşəlli olması» fikrinin bütünlüklə yalan və böhtan olmasını sübut edirik. (Məmmədov, 2010: s. 72)

Şuşanın zaman keçdikcə iqtisadiyyatı da inkişaf etməkdə idi, iqtisadiyyatında kənd təsərrüfatı daha da üstünlük təşkil edirdi. Şuşa geniş sahəli kənd təsərrüfatına malik olmuşdur. Başlıca kənd təsərrüfatı sahələri heyvandarlıq, bağçılıq, tütünçülük, arıçılıq, tərəvəzçilikdir. Şuşada kənd təsərrüfatına uyğun torpaq sahəsi 20 min hektar olmuşdur (1988-ci il məlumatı). Şuşada 25 kolxoz, 5 sovxoz fəaliyyət göstərirdi. Kənd təsərrüfatına uyğun torpaqlardan 3,8 min hektarı əkin sahələri olmuşdur. Əkin sahələrindən məhz 0,1 min hektarı suvarılırdı. 3,4 min hektar əkin sahəsinin 1,5 min hektarında dənli və paxlalı bitkilər – xüsusən də buğda, qarğıdalı, arpa əkilirdi. Burada quraqlığa davamlı, bərk buğda növləri əkilirdi. «Şərq», «Arandəni», «Şirvandəni», «Sevinc» növləri buna misaldır. Şuşanın çoxillik bitkiləri növlərində Şah-tut ağacları böyük yer tutur. Böyük diqqət tələb etməyən bu növ ağac Şuşada qədimdən becərilirdi. Şah-tut spirt istehsalında vacib xammal idi. Tut sahələri ildən-ilə genişləndirilirdi. Ona görə ki, tut ağacı həm də ipəkçiliyin əsas yem bazası idi. Əkin sahələrinin 6 faizində tərəvəz-bostan bitkiləri və kartof əkilirdi.Şuşanın iqtisadiyyatında heyvandarlıq əsas yer tuturdu. Buna görə də təsərrüfatın 53 faizində heyvandarlıq üçün əhəmiyyətli olan yem bitkiləri əkilirdi. Şuşada Şərq musiqi alətləri fabriki, Elektrik şəbəkəsi, Qarabağ ipək kombinatı fəaliyyət göstərirdi. (Məmmədov, 2010: s. 81)

Həm XX əsrin əvvəllərində, həm də axırlarında Şuşa ermənilərin Azərbaycana qarşı etdiyi vəhşiliklərlə öncə qarşılaşanlardan olubdur. Şuşa şəhərinin inkişafına görə Azərbaycan KP MKsi bir sıra qərarlar almışdı. 1970-ci illərin ilk vaxtlarında Şuşanın qədim abidələrinin bərpası, təzə obyektlərin tikintisinə başlanılmışdır. 1980-81-ci illərdə Molla Pənah Vaqifin məzarı üstündə yüksək məqbərə ucaldılıb. Azərbaycanın tarixi ərazisi Şuşada Üzeyir Hacıbəyov, Xan qızının və Bülbülün ev muzeyləri təqdim edildi, Natəvanın heykəli ucaldılmışdır. Burada iri çox mərtəbədən ibarət yaşamaq üçün binalar, mehmanxana, inzibati binalar tikilmişdir.

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsi ilə Şuşa ümumittifaq kurort şəhəri olmuşdur. Şuşa eyni zamanda da abidələr diyarıdır, tariximizin abidəsidir. Şuşanın abidələrini öyrəndikcə yaddaşımız daha da güclənir, Şuşa şəhərinə sevgimiz artır. Belə abidələrə misal olaraq Şuşadan 5 km cənubda, Zarışlı (Daşaltı) çayının (Qarqar çayının qolu) sol sahilində, Qarabağ dağlarının ətəyində yerləşən Daşaltı kəndində müdafiə qalasını göstərmək olar. İbrahim Xəlil xanın sığınacağı, taxtası, hamamı; uzunluq 125 metr, eni və hündürlüyü 10 metr (e.ə. IV-II minilliyə aid) Şuşa mağarası; Şuşadan 15 kilometr aralıda yerləşən Malıbəyli kəndində Qarqarların və Alban dövlətinin adını daşıyan tunc dövrü kurqanları mühafizə ilə bağlı toponimlər (Qarqar çayı, Ağvan çayı ) və başqalarını göstərilə bilər. Şuşa abidələri, əsrlər boyu müxtəlif dövrlərdə torpaqlarımıza basqm etmiş düşmənlər tərəfindən məhv edilmiş və dağıdılmışdır.

Təəssüf yaradan bir gerçək qeyd edilməlidir ki, «Alınmaz qala» adlandırılan Şuşamız xəyanətin, biganəliyin qurbanı olmuşdur. Hər bir şey dağıdıldı, məhv edilmiş və yandırılmışdır. Şuşanın günahsız əhalisi isə öz doğma torpaqlarında qaçqına, didərginə, köçkünə çevrilmişdi.

1976-cı ildə isə Ağdərə rayonunun Sərsəng dərəsində Tərtər çayı üzərində Sərsəng Su anbarı istifadəyə verilib. Bu nəhəng obyekt tikilib başa çatdırılma Ümummilli liderimiz H.Ə.Əliyevin diqqəti və böyük qayğısı ilə əlaqələndirilmişdir. Tikinti işlərinə dövlət başçısı özü nəzarət edirdi və hətta 70-ci illərdə “Tərtər çayı üzərində magistral kanallarla su anbarı tikinti işlərinin sürətləndirilməsi tədbirləri haqqında” tikinti üçün əsaslı vəsaitlərin həcmi artırılmış, yeni texnika və işçi qüvvəsi cəlb edilmişdir. Hətta Sərsəng SES-ə Moskva, Kiyev və Volqoqraddan mütəxəssislər cəlb olunub. Tikintiyə sərf olunan vəsait ümumi məbləğ 95 milyon manata çatmışdır ki, bu da altıncı beşillikdə nəzərdə tutulmuş ölkəmizdə su təsərrüfatının tikintisinə sərf olunan bütün vəsaitlərə təxminən bərabər idi.

DQMV-də həmçinin də elm geniş müvəffəqiyyətlə yüksəlirdi. 1940-cı illərinin ortalarında əsası qoyulmuş Azərbaycan SSR Elmlər Akademiyasının Dağlıq Qarabağ filialı çox az zamanda çox layihələr həyata keçirmişdi. 1950-ci ildə DQMVnin Leninavan ərazisində başqa elmi müəssisə “Azərbaycan SSR Elmlər

Akademiyası Genetika və Seleksiya İnstitutunun Qarabağ Elmi-Təcrübə Bazası” açılışı olmuşdu. Elmlər Akademiyasının Qarabağ filialı və Qarabağ Elmi-Təcrübə Bazası özlərinin inkişafı üzərində çalışır, fərqli problemlərin araşdırılmasını genişləndirir, istehsalatla əlaqəni artırır, ixtisaslı insanların yetişdirilməsi prosesinə ayıca qayğı göstərilirdi. 1950-60-cı illərdə ixtisaslı insanların sayı 8 dəfə yüksəlmişdi.

1950-60-cı illərdə ictimai və humanitar elmlər yönündə vacib uğurlar qazanılmışdı. Azərbaycanın xeyli yerlərində, həmçinin də, Qarabağda arxeoloji-qazıntı prosesləri həyata keçirilmiş, ərazidə  orta əsrlər tarixinin çox sayda araşdırılmamış işlərin ortaya çıxaran arxeoloji vasitələr aşkar edilmişdir. Həmən araşdırmada Ə.Q.Cəfərovun, M.M.Hüseynovun ərazidə apardıqlan arxeoloji elmi-tədqiqat işləri vacib rol oynayırdı.

Məlum olunduğu kimi, Azərbaycanın qədim ərazisi Qarabağ incəsənətin deyə bilərik ki, hər bir növünün, eyni zamanda yeni sənətşünaslığın başlıca növünün formalaşdığı, bədii, tədqiqat işlərinin olduğu tarixi və mədəni diyardır. Bədii ənənələrin formalaşması, inkişafı və cilalanması üçün uzun tarixi dövr lazımdır. Elə bu sübuta yetirir ki, millətimiz yüzlərlə illər ərzində bu ərazilərdə yaşayıb, mədəni adətlər, bədii ənənələr yaradıb, gələn nəslə ötürüblər.

Ümumilikdə, 2020-ci ilə qədər işğal altında olmuş ərazilərə verilən ziyan 6 milyard 71 milyon ABŞ dolları qədərdir. Mənəvi dəyən zərər isə ölçülə bilməyəcək dərəcədədir.

Ermənilər bununla da yetinməyərəkdən milli musiqimizə, mətbəximizə də sahiblənməyə başlamışlar. Ona görə ki, erməni azğınlığının qarşısı zamanında alınmayıb.

Hal-hazırda da işğaldan azad olunan torpaqlarımızda dağıdılmış, məhv edilmiş mədəniyyət izlərimiz, abidələrimizdə yenidən quruculuq, təmir tədbirləri həyata keçirilir. Bu da onu göstərir ki, bu abidələrin heç biri Ermənistana məxsus deyildir ki, həmən abidələri amansızlıqla dağıtmışlar.

### 1.3. I və II Qarabağ müharibələri və onların nəticələri

Ermənistan-Azərbaycan iki tərəf arasındakı münaqişə 20-ci əsrin tarixində ən dəhşətli münaqişələrdən biri olaraq yadda qalmışdı, çünki onun nəticələri yüzlərlə azərbaycanlının talehinə çox ciddi təsir göstərmişdir.

Beləliklə, təcavüzün necə başlamasına baxaq. XX əsrin 90-cı ilin mayında Ermənistanda baş tutan seçkilərdə Erməni Milli Hərəkatının qələbəsi nəticəsi ilə respublikada hakimiyyətə müharibəni aşılayan şovinist dəstələr gəldi. Elə bu da onları işğalçı müharibəyə hazırlıqlarını tezləşdirdi. İrəvan hər bir qüvvəsini qeyri-rəsmi hərbi qüvvələrin yaradılmağına, silahlanmasına istiqamətlənib öz strategiyalarına əsasən problemi müharibə vasitəsi ilə həll etməyə çalışıb. Elə buna əsasən Ermənistan qətiyyən danışıqlara dəqiq baxmayıb və təkcə beynəlxalq aləmdə onun görüntüsünü yaratmağa çalışıb.

20.08.1990-cı il tarixində erməni silahlı qüvvələri Qazaxın Bağanıs-Ayrım kəndinə hücuma keçmişlər. Azərbaycan və Ermənistan sərhədində gətirilmiş SSRİ hərbi dəstələri kəndi qorumaqdan ötrü yerli insanlara dəstək olmağa cəhd göstərsə də, təyyarələrlə ermənilərə başqa bir dəstələr gətirilmişdi. Ermənistanın Azərbaycana qarşı olan işğalçılığ məqsədi barəsində olan problem 1990-cı il iyulda Moskvada qurulmuş olan Sovet İttifaqı Kommunist Partiyasının XXVIII qurultayında da danışılmışdır.

1992-ci illərin ilk vaxtlarında isə Ermənistan silahlı dəstələri ardıcıl olaraq Qarabağda azərbaycanlıların olduğu əraziləri də işğal altına aldılar. 1992-ci il 8 mayda Azərbaycan Respublikasının tarixi mədəniyyət şəhəri olan Şuşa şəhəri işğal edildi. 1992-ci il 17 mayda həmçinin Laçın şəhərini də ermənilər işğal etmişdi. Laçının işğal olunması ilə də müharibənin Qarabağın sərhədlərindən başqa Ermənistanın işğalçılıq məqsədlərinin daha da böyük olması müəyyən oldu. (Qəniyev, 2019: s.452)

Bu müharibədə ümumilikdə 20.000 insandan çox Azərbaycan əhalisi həlak olmuş, 50.000 insan əlil olmuş, 100.000 insan yara almışdır. Azərbaycanın işğal edilmiş torpaqlarından 1 milyon insan öz doğma torpaqlarında amansızca qaçğın olmuşdur. (Qəniyev, 2019: s.453)

Azərbaycan 30 ilə yaxın idi ki, torpaqlarının 20 faizini işğal etmiş olan Ermənistanla münaqişəni danışıqlar vasitəsi ilə həll etməyə çalışmışdır. Danışıqlar qətiyyən nəticə vermədi. Bunun əksinə olaraq, müəyyən idi ki, ermənilər yalnız vaxt qazanmağa, status-kvonu gücləndirməyə, onu əbədiləşdirməyə çalışmışdır. Azərbaycan Respublikası işğalı heç vaxt qəbullana bilmədi və etmədi də. Çünki 30 ildən sonra qisasımızı aldıq, həm də danışıqlar yolu ilə deyil də döyüş meydanında aldıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ərazimizin tamlığının bərpa edilməsindən ötrü əvvəlcə iqtisadi gücün əhəmiyyətini elan edib. Aparılan düşünülmüş siyasət nəticəsində Azərbaycan güclənməyə başladı, iqtisadi müstəqilliyini təmin etdi və iqtisadi cəhətdən heç kimdən , istənilən ölkədən və beynəlxalq maliyyə qurumlarından asılı olmadan  müstəqil müasir dövlətə çevrildi. O, dünyada öndə olan inkişaf formasını təşkil etdi. Respublikanın iqtisadi inkişafı hərbi quruculuqda qayıdışı əsaslandırdı. Ordumuz ən yeni silah və hərbi vəsaitlərlə təmin olundu. Azərbaycan hərbçilərinin biliyi və bacarığı yüksəldilmiş, sosial müdafiəsi və peşə mühitinin artılırması yönündə vacib işlər görülmüşdür. Azərbaycanın düşməndən müdafiə sənayesi inkişaf etməkdə idi və hərbi qüvvənin ordudaxili tələbatının çoxu yerli istehsalın hesabına ödənilirdi. Ölkəmiz 1000-dən çox növdə ordu üçün məhsulların istehsalına başladı, ən yeni silah və sursatların ixracatcısı oldu. Ordumuzun müasir döyüş bacarığı Azadlıq meydanında keçirilən çoxsaylı hərbi paradlarda dünyaya göstərilmişdir. Qeyd olunanların nəticəsi ilə biz bu gün qələbə qazanmışıq və 30 illik hədəfimizə çatmışıq.

Ən əsası isə odur ki, ötən 30 il ərzində Azərbaycan xalqı heç vaxt işğalla barışmayıb, öz ərazi bütövlüyünün bərpasında əzmkarlıq nümayiş etdirib. Hər zaman yetişmiş vətənpərvər gənclik Vətənin mənafeyi naminə bütün fədakarlıqları edə biləcəyini dəfələrlə göstərmişdir.

Bu zaman müddətində Azərbaycan çoxlu, strateji və orijinal ölkəxarici siyasət kursunun həyata keçirilməsi, beynəlxalq təşkilatlarla və dövlətlərlə aktiv ünsiyyətinə görə güvənilir tərəfdaş kimi öz mövqeyini çox möhkəmləndirmiş, ölkənin nüfuzunu yüksəltmiş və qətiyyətini regionda mühim amilə çevirmişdir.

27.09.2020-ci il tarixində Ermənistanın yeni hərbi hərəklərə keçməsinə, ordumuzuna, vətəndaşlarımızın yaşayış məntəqələrinə atəş açmasına əsasən əks-hücum hərəkəti həyata keçdi, sonra isə “Dəmir Yumruq” adı ilə tanınan olan həmin hərəkət Vətən müharibəsinə döndü.

44 gündən ibarət Vətən müharibəsi zamanında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa hər zaman qürurla səslənmişdi. Həmin səslənişlər xalqımıza stimul oldu, möhkəm birlik yaratdı, döyüşün irəliləməsinə eyni zamanda talehinə böyük təsir etdi. Hər səsləniş gələcək qələbələrin xəbəri olmuşdu.

Prezident 27.09.2020-ci il tarixində Vətən müharibəsinin gedişatında xalqa birinci səslənişində hər bir vətəndaşı qələbə qanmağımıza yönəltdi: “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

8 noyabr 2020-ci il tarixində ölkəmizin tarixinə böyük hərflərlə Qələbə Günü adı ilə qeyd edildi. İlham Əliyev Şəhidlər Xiyabanından xalqımıza 7-ci səslənişini etdi və Şuşanın azad edildiyini xalqımıza və bütün dünya azərbaycanlılarına elan etdi.

10.11.2020-ci il tarixində Ermənistanın kapitulyasiya aktı olan “Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyası Başçısının Bəyanatı” imzalanıb. 10.11.2020-ci il tarixində saat 00.00-dan Qarabağ müharibəsi ərazisində atəş açılmasının və hər bir döyüş əməliyyatlarının tamamilə sonlandırılması elan edilir. Daha sonra Azərbaycan və Ermənistan olduqları yerdə olacaqlar. Elə həmin gün İlham Əliyev xalqa səkkizinci müraciətində xalq şüarı olmuş “Qarabağ Azərbaycandır!” kəlməsi ilə bütün Qarabağın əhatə olunması və Ermənistan-Azərbaycan münaqişəsi, “Status-kvoya nə oldu? ... Status yoxdur və olmayacaq. Nə qədər ki, mən prezidentəm, bu, olmayacaq. Ona görə də həmin sənədin çox əhəmiyyəti var. Əminəm ki, bütün Azərbaycan vətəndaşları bu günlərin və dəqiqələrin həyatlarının ən xoşbəxt günləri olduğuna inanırlar. Azərbaycan xalqına xoş xəbərləri və bu mesajları çatdırmaq mənə də qismət oldu. Bu tarixi sənədi imzaladığım üçün çox şadam. Xoşbəxtəm ki, biz öz

doğma yurdumuza, doğma Qarabağımıza, Qarabağın tacı olan Şuşaya dönürük və həmişə bu ərazilərdə yaşayacağıq! Bundan sonra bizi bu torpaqlardan heç kim məcbur edə bilməz!" (İlham Əliyevin çıxışı, https://president.az/az/articles/view/45923)

Bu gün Azərbaycan da öz gücünü göstərir. Zamanımızın sevincli və qürurlu günlərini yaşayırıq. 2020-ci ilin sonları isə yeni tariximizin ən yeni və qürurlu mərhələsidir: – Zəfər mərhələsi! Biz məhz indi qalib xalq kimi özümüzü bütün dünyaya tanıtdıq. Biz düşmənin məğlubiyyətinin əvəzini çıxmaq məqsədi ilə müxtəlif çirkin əmələ əl atacağını yaddaşımızda saxlamalıyıq. Hansı ki, düşmən I vətən müharibəsində dövlətimizdə yaranan hərc-mərclikdən, hakimiyyət uğrunda olan daxili gərginliyin verdiyi imkandan yararlanmışdı və yenidən başqa növ fürsət axtara bilər. Dövlət başçımızın söylədiyi kimi, "Ölkəmiz tarixdə heç bir zaman bunun kimi parlaq Zəfər qazanmamışdı, tarixdə heç bir zaman bu vaxtkı qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz dogma torpaqlarımızı azad etmişik." Qələbəmizi və eyni zamanda Qarabağın Azərbaycanın əzəli torpağı olması həqiqətini bütün dünyaya yenidən və hər zaman çatdırmaq da bizim vəzifəmizdir. Bunu bir təbliğatdan əlavə bir həqiqət olmasını bütün dünya bilməlidir.

II Qarabağ müharibəsi zamanında Ermənistandan Azərbaycan Respublikasına tərəf gedən informasiya savaşının də cavabı yetərincə verilmişdir. Ölkəmiz informasiya savaşında da Ermənistana qalib gəlmişdir. Düşmənin yaydığı əsassız və əsassız informasiyalar zamanında yalan olduğu aşkarlanır, xarici auditoriyaya düzgün informasiyalar çatdırılmışdır. Düşmən kiber hücümlarına da qalib gəlinmişdir.

Ötən 17 ilin istənilən icmalı onu göstərir ki, dövlət başçısı İlham Əliyev Qarabağ məsələsini hər zaman gündəmdə saxlamağa çalışıb. Bu, onun bütün çıxış və bəyanatlarında, beynəlxalq təşkilatların sessiyalarında, dünya liderləri ilə keçirdiyi hər bir görüşlərdə, müsahibələrində aydın şəkildə görülüb. O, hər kəsin hansı tərəfin təcavüzkar, hansının qurbanı olduğunu bilməsinə çalışırdı. İndi bütün dünya xəbərdardır. Bu, müharibədə uğuru şərtləndirən əsas amillərdən biridir.

İkinci Qarabağ müharibəsində beynəlxalq münasibətlər də əhəmiyyətli rola malik olmuşdur. Bu münasibətlər müxtəlif ölkələr tərəfindən müxtəlif cür olmuşdur. Məsələn, Türkiyə dövləti "Erməni əhalisini öz fəlakətli hökumətinə və onları kukla kimi oynadanlara qarşı durmağa tərəf, gələcəyinə isə sahiblənməyə çağırıram. Bütün dünyanı işğala və şiddətə mübarizəsində Azərbaycan Respublikasına dəstək verməyə çağırıram. Çox üzücüdür ki, 30 il müddətə yaxındır bu məsələyə məhəl qoymayan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri onun həlli üçün heç bir addım atmırlar. Ermənistan bir daha özünü regionda sülh və sabitliyə əsas təhlükə olaraq göstərib. Bu gün Türk xalqı daima olduğu kimi hər bir imkanları ilə qardaş Azərbaycanın yanındadır", - deyə Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan çıxışında bildirib. Qardaş Türkiyə Cümhuriyyəti II Qarabağ müharibəsində bizim yanımızda olmasını açıq formada həm danışıqda, həm də hərəkətləri ilə göstərmişdi. Həmçinin də II Qarabağ müharibəsində zəfər əldə etdikdən sonra İlham Əliyevlə birlikdə Zəfər Paradında da iştirak etmişdir.

Böyük Britaniyanın isə Qarabağ müharibəsi haqqında fikri isə II Qarabağ müharibəsində Azərbaycan Respublikasının ədalətli siyasətini, eyni zamanda da ərazi bütövlüyünü müdafiə etmişdir. BMT Təhlükəsizlik Şurasının hər zamankı üzvü olan Böyük Britaniya Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Təhlükəsizlik Şurası sədrinin adından hazırlanmış və Azərbaycana mənfi münasibət bildirən bəyanat layihəsinə veto qoyub; beləliklə, qəbul olunmamışdır.

ABŞ dövləti isə dövlət katibinin 1-ci müavini Stıven Bıqan Azərbaycanın Xarici İşlər Naziri Ceyhun Bayramov, Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan ilə ünsiyyət qurub və 2 tərəfi hərbi əməliyyatları dərhal dayandırmağa, daha da gərginləşməmək üçün mövcud birbaşa təmaslardan istifadə etməyə, münaqişə və hərbi hərəkətlərdən çəkinməyə çağırıb. Regionda gərginliyi artıra biləcəyini qeyd edib.

ATƏT-in Minsk Qrupunun keçmiş nümayəndəsi Rıçard Hoqland deyib: "Beynəlxalq hüquqa əsasən, Ermənistan daha bir suveren ölkə Azərbaycanın suveren ərazisini işğal atına salıbdır". Həmçinin bildirib ki, ABŞ-ın başlıca

strategiyası bütün xalqların müstəqilliyini, ərazi tamlığına dəstək vermək və qorumaqdan ibarətdir.

Rusiya dövlət başçısı Vladimir Putin müsahibələrində hər dəfə qeyd edib ki, "Ermənistan KTMT müttəfiq dövlətidir, ancaq Qarabağ Ermənistana məxsus olmamışdır, ona görə də Rusiyanın Qarabağda hərbi əməliyyatlarla bağlı vasitəçilikdən başqa öhdəliyi yoxdur". Rusiya Xarici İşlər Naziri Qarabağ müharibəsinin hər iki tərəfini o zaman atəşkəsə səsləyib. II Qarabağ müharibəsi zamanı Rusiya dövlətindən Ermənistan ərazisinə silah-sursat və döyüş texnikasının daşınması ilə əlaqədar informasiya yayılıb. Həmin informasiyalara əsasən, Gürcüstan öz ərazisindən hərbi yüklərin daşınmasını qadağan etdiyi üçün silah və hərbi texnika Qazaxıstan-Türkmənistan-İran marşrutu ilə uçurdu. Ancaq Rusiya dəfələrlə bəyan edib ki, rəsmi daşınan yüklər silah və hərbi texnikadan deyil, Ermənistandakı hərbi bazası üçün tikinti materiallarından ibarət olub.

İtaliya II Qarabağ müharibəsi vaxtı ölkəmizin ədalətli siyasətini, eləcə də ərazi tamlığını müdafiə edib. İtaliyada Kampobassoda Sepıno və San Culıano del Sannıo bələdiyyə və Milan Metroplitan şəhərinin Korbetta kommunası Ermənistanın ölkəmizə tərəf işğalçılıq, soyqırım məqsədinin pis niyyətli olmasını, xalqımız ilə həmrəylik ifadə edən qərarlar veriblər.

Fransa Ermənistan və Azərbaycanı dərhal hərbi əməliyyatları dayandırmağa, danışıqlar keçirməyə çağırıb. Xarici İşlər Nazirinin nümayəndəsinin verdiyi müsahibədə, "Fransa münaqişədən çox narahat olur" dedi. (Matthias, Catherine, 2020)

Fransa Qarabağ münaqişəsində işğalçı Ermənistanı dəstəkləyib. Fransa prezidenti Emmanuel Makronun Ermənistan və Azərbaycan arasında münaqişə ilə bağlı 30 sentyabr tarixli bəyanatı dövlətin Minsk Qrupunun həmsədri olaraq münaqişənin həlli üzrə vasitəçi, həlli missiyasına uyğunluğu yoxdur eyni zamanda həmən missiyanı sual içərisində qoyub.

Gürcüstan dövlətinin Prezidenti sülhə çağırıb, regional sülhün və təhlükəsizliyin qorunmasını dəstəklədiyini bildirib. Gürcüstanın üçüncü dövlət başçısı Mixail Saakaşvili Facebook səhifəsində "Mövqeyim ərazi tamlığı prinsipinə əsaslanır, bu o deməkdir ki, Qarabağ Azərbaycanın suveren torpağıdır, bu qətiyyən

dəyişməyəcək" sözlərini söyləyib. Dövlət II Qarabağ müharibəsi zamanı öz ərazisi və hava yolundan Ermənistan dövlətinə silah avadanlıqların daşınmasını qadağan edib.

Serbiyanın II Qarabağ müharibəsindən öncə, münaqişə zamanı düşmən tərəfə silah satdığını təsdiq edən məlumat əldə edilib. Azərbaycan bununla bağlı Serbiyaya etiraz edib.

Yunanıstan dövləti isə 44 günlük müharibədə Ermənistana dolayı dəstək verib.

Almaniyanın Xarici işlər Naziriliyinin başçısı Heiko Maas bildirib ki, tərəflər təfərrüatlı danışıqlar xeyrinə müharibəni tez bir zamanda dayandırmalıdırlar, eyni zamanda gərginliyin iki tərəfini hər bir hərbi əməliyyatları dərhal sonlandırmağa çağırıb. O, eyni zamanda mülki yaşayış yerlərinin atəş olunmasından narahatlığını bildirib.

İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə İranın müharibə ilə yaxından maraqlandığını və Tehranın tərəflərin müharibənin dayandırılmasından ötrü vasitəçi olmağa razı olmağını səsləndirib. İran rəsmiləri münaqişə zamanı İrandan Ermənistana hərbi göndərişlər barəsində xəbərləri təkzib etmiş, Ermənistana silah göndərilməsinin qarşısını almaq üçün İranın hava məkanı və quru yolları bağlanmışdı. Həmçinin İranın fərqli yerlərində ölkəmizin qələbəsində dəstəyini nümayiş etdiriblər. Şuşanın işğaldan azad olması, Azərbaycan Respublikasının İran ilə sərhədinə nəzarəti ələ keçirməsi Təbriz, Ərdəbil və başqa yerlərdə böyük şadlıqla qarşılanıb. Ordumuzun İranla sərhəddə Araz çayının digər tərəfindən çəkilmiş işğalçılara hücumunu əks etdirən internet görüntüləri geniş müzakirə olunub.

Pakistanın Xarici İşlər Nazirlıyi: "Ermənistan vəziyyətin daha da gərginləşməsinin qarşısını almaqdan ötrü hərbi əməliyyatları sonlandırmalıdır. Biz Azərbaycanın Dağlıq Qarabağa aid mövqeyini dəstəkləyirik və bu, BMT Təhlükəsizlik Şurasının yekdilliklə qəbul etdiyi qətnamələrə uyğundur". Qardaş dövlət olan Pakistan II Qarabağ müharibəsində Azərbaycana dəstəyini aydın şəkildə göstərdi.

Qazaxıstan Xarici İşlər Nazirlıyi gərginliyi sabit etmək, hücumdan əl çəkmək, danışıqlar yolu həll etməyi, hər bir mümkün tədbirlərə çağırıb və dünya təşkilatları çərçivəsində münaqişənin sülh ilə həllinə kömək etməyə çağırıb.

Əfqanıstan dövlətinin Xarici İşlər Naziri Qarabağ ərazisindəki vəziyyətlə əlaqədar bəyanat verib. "Bu region beynəlxalq aləmdə Azərbaycanın bir ərazisi olaraq tanınır. Əfqanıstan Qarabağın işğalını sonlandırmağı tələb edir", - Nazirlikdən bildirilib.

Bosniya və Herseqovina Rəyasət Heyətinin bosniyalı kollektivi Şefik Jaferoviç və Bakir İzetbeqoviç Azərbaycanı dəstəklədiklərini, düşmənimizi pislədiklərini və bu durumu 1992-95-ci illərdə olan Bosniya müharibəsi ilə qarşılaşdırdıqlarını bildiriblər.

İsrail dövlətinin Yısrael Beiteınu partiyasının başçısı olan Avıqdor Lıberman özlərinin “Vesti” qəzetinə müsahibəsində Qarabağ torpaqlarının Azərbaycanın ərazisi olmasını təkrarlayıb. "Məhz buna əsasən də BMT-yə üzv olan heç bir dövlət, həmçinin Ermənistan Qarabağı suveren yer olaraq tanımayıb. Tarixi reallıq və beynəlxalq hüquq, eləcə də İsrailin maraqları baxımından bizim mövqeyimiz tam şəkildə birmənalıdır. Biz dəstəkləyirik. Azərbaycanın ərazi bütövlüyü.Biz hesab edirik ki, o ərazi bütövlüyü bərpa edilmədən regionda məsələnin həlli mümkün deyil. Tarix baxımından, beynəlxalq və milli maraqlar baxımından Azərbaycanın ərazi bütövlüyü İsrail dövlətinin birbaşa mövqeyidir”.

Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyinin bəyanatında Dağlıq Qarabağın Azərbaycan Respublikasının beynəlxalq aləmdə məşhur sərhədləri içərisində yerləşdiyi bildirilir.

Qarabağ münaqişəsinin informasiya modellərindəndən biri də beynəlxalq təşkilatların qərarlarıdır. Bütün təşkilatların Azərbaycan Respublikasına qarşı münasibəti eyni olmamışdır, müxtəlif təşkilatların Azərbaycana qarşı münasibətləri müxtəlif cür olmuşdur. II Qarabağ müharibəsində isə dünyada beynəlxalq təşkilatların yanaşmaları aşağıdakı kimi olmuşdur:

Avropa İttifaqı – Aİ Qarabağ münaqişəsinin tərəflərini hərbi əməliyyatları dayandırmağa, gərilməni yox etməyə, atəşkəs rejiminə dəqiq riayət olunmağa

müraciət edibdir. Aİ-nin nümayəndəsi Cozef Borrel də Dağlıq Qarabağ münaqişəsinin ilkin şərt olmadan, ATƏT-in Minsk Qrupu həmsədrlərinin rəhbərliyi altında dərhal həllinə dair danışıqlara qayıtmağın zəruriliyini qeyd edib. Avropa institutları münaqişə ilə bağlı bütövlükdə 2-li standart göstərib və Azərbaycanın beynəlxalq hüquqda bəlirlənmiş ərazi tamlığınının yenidən bərpa olunmasını həqiqətən dəstəkləməyib.

BMT-nin baş katıbi olan Antonıo Guterres, "Ermənistan və Azərbaycan tərəfləri dərhal müharibəni sonlandırmalı, gərginliyi yox etməli və gecikmədən əsaslı danışıqlar prosesinə başlamalıdır" demişdi. Təşkilat sentyabrın 29-da iclasda baş verənlər barəsində dərhal danışıq həyata keçirəcəyini bildirib.

ATƏT - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Ermənistan və Azərbaycan tərəflərini müharibəni sonlandırmağa və danışıqlar yolu ilə həll etməyə çağırıbdır.

Türk Şurası - Şuranın nümayəndəsi olan Bağdad Amreyev respublikamızın işğal edilmiş torpaqlarındakı müharibədən çox narahat olduğunu bildirib. Həmçinin Şura Azərbaycan dövlətinin ərazisinin tamlığını, beynəlxalq aləmdə tanınmış sərhədinin toxunula bilməməzliyini qorumağa çağırıb və Ermənistanın hərbi dəstələrinin Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən dərhal, heç bir şərtsiz olaraq, tamamilə boşaldılmasını söyləyib.

Öz doğma vətənlərindən uzaqda başqa ölkələrdə yaşayan dünya azərbaycanlıları da müharibə zamanı əllərindən gələni etmişdirlər. II Qarabağ müharibəsi zamanı Azərbaycan diasporunun fəaliyyəti aşağıdakı kimi olmuşdur:

2020-ci il oktyabr ayının 6-da Türkiyədə İstanbul və Konyada dövlətimizə dəstək üçün aksiyalar təşkil olunubdur. Elə həmin gün Kanadada Kalqaridə Azərbaycan dövləti üçün aksiya təşkil olunub. Həmin ayın 8-də Eskişehir Azərbaycanlılar Dərnəyi, Humanitar Yardım Fondu (EHH) və digər qeyri-hökumət təşkilatlarının rəhbərləri və üzvləri Eskişehirspor stadionunda keçirilən tədbirdə olublar. Daha sonra oktyabr ayının 11-də Gürcüstanda Marneulidə haqqlı tərəf olan Azərbaycan dövlətinə dəstək olmaqdan ötrü geniş aksiya təşkil edilib. 2 gündən

sonra yəni oktyabrın 13-də İtaliyada Milanda Ermənistanın işğalçılıq məqsədinə etiraz və dövlətimizə dəstək olmaq məqsədli mitinq keçirilib.

İsrail dövlətindəki Petah-Tikva şəhərində olan Azərbaycanlılar işğalçı Ermənistan hərbi dəstələrinin ölkəmizə qarşı təcavüzü, terrorizminə etiraz olaraq aksiya təşkil edibdir.

2020-ci ilin oktyabr ayının 17-də isə Almaniyada yaşayan Azərbaycanlılar Alyansı Berlində 10 mindən də çox soydaşlarımızın iştirak etməsi ilə Ermənistan hərbi dəstələrinin Gəncə şəhərinə raket hücumundan sonra dinc əhalinin və azyaşlıların həlak olmasına, mülki obyektlərin dağıdılmasına etiraz olaraq aksiya həyata keçiriblər. 1 gündən sonra isə Müstəqillik Günümüz ilə əlaqədar olaraq İllinoys ştatının Çikaqo şəhərində media önündə Azərbaycanın dövlət himni səsləndirilib və bayrağımız ucaldılıbdır. Həmin gün Kanadada Torontoda Azərbaycanın haqq yolunda apardığı mübarizəsinə dəstək məqsədilə həmrəylik mitinqi keçirilib. Daha bir azərbaycanlı icmasının vasitəsi ilə oktyabrın 21-də Polşanın Vroslav şəhərində olan şəhərin bələdiyyə binası qarşısında icazəli etiraz həyata keçirilib. Həmin vaxtlarda İsveçrədə yaşayan azərbaycanlılar birliyi Ermənistanın Gəncədə etdiyi terror hadisələrinə qarşı olaraq Stokholmun T-Central (Ahlens) şəhərindən yürüş təşkil edib. Daha sonra ayın 29-da Texasın Hyuston ərazisində yaşayan azərbaycanlılar Ermənistan hərbi dəstələrinin ölkəmizin Bərdə və Gəncə şəhərlərində, həmçinin başqa yaşayış yerlərində törətdiyi terror aktları barədə dünya ictimaiyyətinə məlumat vermək məqsədilə Hyuston şəhər meriyası qarşısında aksiya keçirmişdilər. Ayın 30-da isə İtaliyada məskunlaşan və təhsil üçün orada yaşayan azərbaycanlılar, həmçinin türk icmasının kollektivi Venesiyada Ermənistan ordusunun Gəncəyə və Bərdəyə törətdiyi terror aktları, dinc əhalinin, o cümlədən qadın və uşaqların qətlə yetirilməsi ilə bağlı ictimaiyyəti məlumatlandırmaq məqsədilə aksiya keçirmişdilər.

Qarabağ münaqişəsinin informasiya modelində erməni diasporunun fəaliyyəti olduqca yüksəkdir. Diaspor düşmənin informasiya-təbliğatının subyekti olmaqla yanaşı, eyni zamanda da vasitəsidir. Bu diaspor II Qarabağ Müharibəsində təxmin

edilən qədər aktiv deyildi. Dünyanın müxtəlif yerlərində olan diaspor kollektivi isə xoşagəlməz hərəkətləri ilə fərqləniblər.

2020-ci il oktyabr ayının 11-də Los-Ancelesin erməni icması Vaşinqton, San-Fransisko, Nyu-York və ABŞ-ın başqa yerlərində kiçik etirazlarla yanaşı, Türkiyə konsulluğu qarşısında 100 min nəfərlik etiraz aksiyası keçirib. Həmin ayın 28-də isə ermənilər Fransanın cənub-qərbindəki İseredə yolu bağladılar. Lion, Marsel istiqamətində yol bağlanıb. Tıxacda olanlarla etirazçılar bir-biriləri ilə qarşıdurma yaşayıb. Bu bəs deyilmiş kimi 300-400 erməni etirazçı işə gedərkən türklərə şiddət edərək onları yaralayıb.

Müharibə şəraiti hər bir sahəyə təsir etdiyi kimi idmana da təsir etmişdi. Belə ki, Qarabağdakı vəziyyətə görə UEFA-nın İcraiyyə Komitəsi Azərbaycanda və Ermənistanda UEFA bayrağı ilə oyunları qadağan etmişdi. Hər iki ölkənin təmsilçiləri ev oyunlarını qeyri-müəyyən müddətə keçirməmək qərarına gəliblər.

Dünyada baş verən çoxsaylı münaqişələrə, müharibələrə nəzər salsaq, son söz daha güclü tərəfdədir. Azərbaycan xalqının Qarabağ uğrunda apardığı 44 günlük Vətən Müharibəsi bunun ən son nümunəsidir. Ötən 17 ildə biz gücləndik, düşməni dəmir yumruqla darmadağın etdik. Otuz illik işğala, ədalətsizliyə 44 gündə son qoyuldu.

Biz yalnız güclü olarsaq ölkəmizə qarşı olan həm hərbi, həm də informasiya müharibələrinin qarşısın ala bilərik. Güclü dövlətin siyasi əlaqələri, siyasi, iqtisadi durumu güclü olduğu kimi biz də hal hazırda bu yoldayıq. Nə qədər güclü olarsaq bir o qədər haqlı təbliğatımızı aparmağımız asand olar. Dövlətin strateji məqsədi olan mövzuların böyük insan qrupunun inamı olmasını, insanlara qəbul edilməsinə görə təbliğatın imkanları əhəmiyyətli dərəcədə genişdir. Növü, davamlılığı baxımından təbliğatın ictimai rəyin yaranmasında vacib əhəmiyyətə sahibdir. Belə baxımdan doğru zamanda, doğru yerdə istər qələbəmizin təbliğatı, istərsə də, əzəli torpaqlarımızın Azərbaycan ərazisinə aid olması həqiqətini faktlarla dünyaya çatdırmaq mühim vəzifəmiz və məqsədimiz olmalıdır.

# FƏSİL II. “QARABAĞ AZƏRBAYCANDIR!” TƏBLİĞATININ BUGÜNÜ VƏ SABAHI

## 2.1. Qarabağın Azərbaycanın qədim yaşayış məskəni kimi təbliğatı

Dünyada sosializm sisteminin tənəzzülü nəticəsində çox problemlər geriyə qalmışdır. Şübhəsiz ki, bu məsələlərdən biri də etnik müharibələrdir. Bu məsələlərə zamanında, doğru yanaşmamaq, məsələnin həssaslığına ciddi yanaşmamaq çox insanın həlak olmasına səbəb olub. Yaxın illərdə regionda olan hadisələr yenidən nümayiş etdirdi ki, həll yoluna qoyulmamış etnik-regional problemlər beynəlxalq aləm üçün, cəmiyyət üçün əsaslı təhlükədir. Həll yoluna qoyulmaması da bəzi beynəlxalq təşkilatların lobbiçiliyi yüksək olan xalqın yanında olub həqiqətin izində olan, öz yurd-yuvalarından məcburi köçkün olan xalqa tam dəstək verməməklə baş verir.

Keçmiş sosialist ölkələrində var olan etnik münaqişələrin bir neçə xüsusiyyətləri vardır. İlk öncə, bu münaqişələr etnik münaqişə sərhəddindən çıxmaqla etnik-regional münaqişəyə çevrilmişdir. Bütün dövlətlərdə yaşanan ciddi hal müxtəlif formada ətrafındakı dövlətlərə, bəzi vaxtlar isə həmçinin də ətraf bölgələrə də xüsusi təsirini edir. Bu hal da regional problemlərə çevirə bilər. Bu problemlərin həll edilməsi prossesi təşkilatların və beynəlxalq birliyin dəqiq işlərini, həmçinin beynəlxalq aləmin normalarının aparılmasını tələb edir.

Eyni zamanda, etnik problemlərin inkişaf etməsinin və həll edilmə istiqamətlərinin verilməsinində, aşkarlanmasında subyektiv olmaq çox önəmli dərəcədə mühimdür. Bu məsələnin nəticəsi ilə qarşı tərəflərin verdiyi arqumentlərin düzgünlüyünü müəyyən etmək asand olmur. Bu məsələ də münaqişənin həllində əks-təsir göstərir.

Qarabağ qədim yaşayış dövrümüz deyərkən əcdadlarımızın, dədə-babalarımızın, valideynlərimizin qədim yaşayış dövrü nəzərdə tutulur. O dövr ki, onlar orada yaşayıb, yaradıb, bugün bizim sahib olduğumuz o zəngin mədəniyyəti bizə ötürüblər. O mədəniyyəti, tarixi izləri, qədim abidələri, vətənimizin hər

torpağının bizə aid olması gerçəyini bütün dünyaya çatdırmaq da bugün bizlərin borcudur.

Bu mədəniyyəti, əcdadlarımızın qədim yaşayış məskəni olması gerçəyini dünyaya çatdırmaq üçün aparılan tədbirlərə belə bir nümunə göstərilə bilər:

24 dekabr 2018-ci ildə "Qarabağ: Əcdadlarımızın mirası" filminin və Gənclər və İdman Nazirliyinin dəstək olması ilə hazır olunmuş 3D formatında "Cəbrayıl - virtual səyahət" filminin göstərişi keçirilmişdir.

Azərbaycanın qədim torpağı, tarixi Qarabağ ərazisinin, onun mədəniyyət irsinin ölkəmizə, xalqımıza məxsusluğu və bu reallıq barəsində düşmən fırıldaqlarının təkzib olunması, əzəli ərazilərimiz olan Qarabağa Ermənistanın torpaq iddiaları barəsində olduğunu bildirilib. Həmçinin, qeyd olunub ki, bu məlumatların bütün dünya ictimaiyyətinə obyektv şəkildə çatdırmaq sənədli filmin əsas məqsədidir.

Əcdadlarımız orada bu qədər çalışıb, mədəniyyət irsi izi buraxmalarına, dövlətin iqtisadi inkişaf üzərində çalışmasına baxmayaraq erməni millətçilərinin başqa bir bəhanəsi də Dağlıq Qarabağ ermənilərinin sosial-iqtisadi cəhətdən ağır halda olması bəhanəsi idi.

Erməni millətinin bu fırıldaqçılığının və bəhanəsinin heç bir əsasının olmadığını sübutu üçün problemin başlanğıc zamanlarında ölkəmizin kütləvi informasiya vasitələrində çox təhlil edilmiş məqalələr çıxmışdır. "Vışka" qəzetinin 24.02.1988-ci il tarixində sayında DQMV-nin sosial-iqtisadi inkişaf etməsi çox geniş şəkildə təhlil olunmuşdur. Bu qəzetdə buranın axır 15 il müddətində iqtisadiyyatının inkişafından bəhs edilir və qeyd edilir ki, bu zaman müddətində sənaye istehsalı üç dəfədən çox artmışdı. Burada maşınqayırmanın, yüngül sənayenin xeyli inkişaf etdiyi və həmin sənaye sahələrinin respublikanın başqa rayonları ilə yaxın inteqrasiya olduğu qeyd edilir. Məqalədə Yevlax və Xankəndinin qaz borusunun, Ağdam və Xankəndinin dəmir yolunun xəttinin işə başlamasının iqtisadiyyatın inkişafına yaxşı təsir etdiyi qeyd olunur. Yazıda göstərilən rəqəmlərdən müəyyən olur ki, Xankəndi əhalisi gündəlik süd və ət istehsalına görə

təkcə Bakıdan geri qalır. Respublikanın başqa şəhər mərkəzlərindən, rayonlarından da Xankəndi çox öndə olmuşdur.

“Bakinski raboçi” qəzetinin 11.03.1988-ci il tarixində sayında isə bu haqqda daha da ətraflı rəy qeyd olunurdu. Həmin məqalədə axır 16 il müddətində burada sənaye məhsulunun istehsalı tezliyinin 3,23 dəfə artımı yazılırdı ki, həmən göstərici ümumrespublika statistikasından yüksək olmuşdu. Ümumilikdə məqalədə DQMV-nin iqtisadi inkişafı inkişaf edən iqtisadiyyat olaraq qeyd olunurdu. Regionda bir çox sahəli sənaye strukturu yaradılmışdı. Bu struktura tikinti materialları, elektrotexnika, ağac emalı, yüngül və yeyinti sənayeləri aid idi. Axır 10 illiklər müddətində istifadəyə verilən məktəbəqədərlərə, yaşayış sahələrinə və səhiyyə müəssisələrinə kapital ayırımını kompleks miqdarına əsasən buranın statistikaları respublika göstəricilərindən öndə olmuşdur. Dağlıq Qarabağ probleminin baş verməsi ərəfələrində DQMV ipək istehsalına görə ümumrespublika üzrə 2-ci mərkəz olmuşdur. Ölkədə istehsalı olunan ipəyin 25 faizi DQMV-ə aid idi. Yeyinti sahəsində ət, çörək, südün istehsalı xüsusən inkişaf edirdi. Həmçinin də yeyinti məmulatlarının istehsal miqdarına və istehlak olunmasına əsasən DQMV ümumrespublika sırasında ilk sıralardan birində idi. (Süleymanlı, 2011: s.143-144)

Həmçinin, kapital qoyuluşunda də burada çox sayda işlər görülmüşdür. Son 5 illik müddətində buranın energetika sahəsinin inkişaf etməsinə öncəki illərlə müqayisə etdikdə 1,4 dəfə çox kapital yatırılmışdı. Sosial tikintilərin inkişaf etdirilməsinə isə 1971-85-ci illər ərzində 45 milyon rubl yatırılmışdır. Buranın hər bir rayonları asfalt yolla ölkənin magstral yollarına birləşdirilmişdir. Vilayətin iqtisadi inteqrasiyası da diqqətdə saxlanılırdı. Burada istehsal edilən məhsulların yarı hissəsi vilayətdən kənara göndərilirdi.

Təhlil materialında vilayətin iqtisadi inkişafını əks etdirən bir çox digər rəqəmlər və faktlar da vardır. Buna baxmayaraq, buranın iqtisadiyyatının inkişafına maneçilik edən problemlərdən də məqalədə bəhs edilir. Həmən problemlərin biraz qədəri sovet orqanlarla əlaqəlidisə, biraz qədəri də vilayət tərkibində təşkilatçılığın zəif olması ilə əlaqəli idi.

Buranın iqtisadiyyatının zəiflyinin yoxa çıxarılması fikri ilə ermənilər buradakı hər bir sənaye, təsərrüfat obyektlərinin Azərbaycan SSR orqanlarına tabeliçiliyindən çıxardılması iddiasını da verdilər.

Qarabağda 1989-cu ilin yanvarında XİK-in fəaliyyətə başlamasından sonra bu iş ermənilərin xeyrinə tez zamanda həyata keçirildi. DQMV-də Xüsusi İdarəetmə Komitəsinin işləməsi SSRİ Ali Soveti Rəyasət Heyətinin 12.12.1989-cu il tarixində görüşündə qərar verildi. Həmən komitənin üzvləri və rəhbəri komitənin ermənipərəst məmurları oldular və onların səyi ilə SSRİ Nazirlər Soveti 06.05.1989-cu il tarixində DQMV-nin iqtisadi həyatının Azərbaycan SSR tabeçiliyindən çıxarılıb SSRİ nazirliklərinə tabe olunması barəsində qərar verdi.

Belə mənaya gəlirdi ki, Azərbaycan orqanları Qarabağ Muxtar Vilayəti bölgəsindəki hər bir istehsal sahələrindəki nəzarətdən oldular. Bu qərarın qəbul olunması erməni millətçilərinin tam könlüncə idi. Ona görə ki, Qarabağın istehsal obyektlərinin Azərbaycanın nəzarətindən çıxararaq buranın Azərbaycandan qoparılmasının təməlinin yaradılması mənasını verirdi.

Ancaq bununla Dağlıq Qarabağın iqtisadi durumu heç yaxşılaşmadı. Elə erməni separatçılarının və millətçilərinin məqsədi də bu deyildi. Əsas məqsəd Dağlıq Qarabağın Azərbaycandan qoparılması idi və bu məqsədə nail olmaq üçün həyata keçirilmə ehtimalı olan bütün vasitələrə əl atılırdı.

## 2.2. Qarabağın 30 il ərzində Azərbaycan olmasının təbliğatı və onun çatışmayan cəhətləri

Ermənilər təkcə bölgənin tarixini saxtalaşdırmaqla kifayətlənmir, eyni zamanda da ərazilərdəki mədəni və ədəbi dəyərlərinə sahiblənməklə özününküləşdirilməsi də erməni təbliğatının ənənələrindən biridir. Bu ənənənin ən qədim zamanlardan başlandığını elə ermənilərin özləri də təsdiqləyirlər. Erməni tədqiqatçısı Arşak Çobanyan XIX əsrin axırlarında yazırdı ki: "Ermənilərin qədim ədəbiyyatından qalanlar xalqın mənəvi həyatının əks etdirilməsinə xidmət etməyə yaramır. Bu, kilsə ədəbiyyatıdır. O, yunan ədəbiyyatına aid olan rəngarəngliyə və bütövlüyə, bəzi Şərq ədəbiyyatına aid hissi zənginliyə malik deyildir. O, kobud və sönükdür. Bu bozluq və sönüklük çox səbəblərlə izah edilir". (Süleymanlı, 2011: s. 71)

Qonşu xalqların ənənə və dəyərlərinin özününküləşdirilməsi və sonra da onun sanki özünündür kimi təqdim etmək həm mənəvi qıtlığın yox edilməsi zərurəti ilə əlaqəlidirsə, həm də ermənilərə etnik qədimliliyinin sübutu kimi lazımdır. Hələ XIX əsrin başlanğıclarında Azərbaycan ədəbiyyatı nümunələrinin sanki erməni nümunələri kimi çapı və yayılması sübutları vardır. Misal göstərilə bilər ki, XIX əsrin başlanğıclarında İrəvanda yaşamış, əsərlər ərsəyə gətirmiş azərbaycanlı Fazil İrəvanlı şairin bacarığı ermənilərin fikirlərini cəlb etmiş və onun əsərlərini özlərinin kimi fərqli yerlərdə çap etdirmişlər. Şairin "Qızılgül və bülbül barəsində olan əxlaqi roman" adında kitabı 1812-ci il tarixində Sankt-Peterburq şəhərində İrəvan ermənisi Xocens Markar Geğamyanın imzası ilə çap etdirmişdi. Geğamyan onunla yetinməyib eyni kitabın rus dilində versiyalarını da özününkü kimi Sankt-Peterburqda çap etdirdi. Azərbaycanlı şairin bacarığına sahiblənən erməni Geğamyan bəhs edilən kitabı 1826-cı ildə "Qızılgül və bülbül" adı ilə Parisdə də çap etdirmişdir. Həmin kitab fransız dilinə tərcümə olunaraq 1832-33-cü illərdə Fransada yenidən çapda oldu. Fransada yaşayan Arşak Çobanyan adlı şəxs isə həmən kitabı Avropada yaşayan ermənilərin ləhcələrinə bənzədərək "Anahid" jurnalında çap etdirməyə başlamışdı. Həmən jurnalın 1900-cü ildə çap edilən 12-ci sayında isə oxuyanlara informasiya verilmişdir ki, bu əsərin müəllifi Geğamyan yox, Fazil İrəvanidir.

Bunun kimi misallar ermənilərin tarixində hesabsız saydadır. Erməni demokratik ədəbiyyatının yazıçısı X.Abovyan öz "Erməni yaraları" əsərinin başlanğıclarında Koroğlunu erməni aşığı adı vermiş və bununla da Azərbaycan milli mədəniyyətinin xeyli örnəklərini özlərininkiləşdirməyə cəhd göstərmişdir.

Azərbaycanın mədəniyyəti nümunələrini özününküləşdirməklə yanaşı, mədəniyyət abidələrimizin bir çoxunu məhv etmiş, həmin mədəniyyəti yaradan xalqa hücum etmişdir.

X.Abovyan özü etiraf etmişdir ki, ermənilər Azərbaycan dilində ifa edilən mahnılara və dastanlara yüksək maraqla dinləyirdilər. Elə bu da , ermənilərin ehtiyacından baş verirdi. Erməni kütlələri öz dillərində, özlərinə aid bədii dəyər olmadığı üçün azərbaycan xalqının bədii dəyərlərindən istifadə edir və daha sonra da bu dəyərləri onlara aid kimi təqdim edirdilər. Yenə də, ermənilər həm də özlərini dəyərli bədii dəyərlər yaratmış xalq kimi təbliğ etməyə çalışırdılar. Ermənistan ədəbiyyatı və ictimaiyyətində alicənabcasına təriflənən X.Abovyan Azərbaycan folklor örnəklərini yığaraq Azərbaycan ədəbiyyatı tarixində naxələfliyi ilə tanınan F.Bodenştedtə erməni folklor örnəkləri kimi tanıtmış və o da həmin nümunələri guya ki, erməni folkloru kimi çap etdirmişdi. X.Abovyanın Azərbaycan folklor örnəkləri ilə yaxından bildiyini onun "Erməni yaraları" əsərindən də görmək olar. Həmin əsərdə o, xeyli sayda Azərbaycan atalar sözlərini elə Azərbaycan dilində qeyd etmişdi. X.Abovyan bu kimi xalq yaradıcılığı örnəklərinə elə vurulmuşdu ki, sonradan həmin onların xeyli hissəsinin F.Bodenştedt tərəfindən Berlində 1850-ci ildə çap etdirilən "Şərqdə min bir gecə" adında 3 cildlik kitaba erməni folklor örnəkləri adı ilə daxil olunmasını bacarmışdır. X.Abovyanın davamçılarından biri Gevorq Haqverdiyan "Aşıq Qərib və Şahsənəm" adlı xalq dastanını ümumiyyətlə erməniləşdirmişdi. Başqa Azərbaycan əsərlərinin erməniləşdirilməsi də erməni yazıçılarının yaradıcılıq həyatlarında əhəmiyyətli mövzunu daşımışdır. (Süleymanlı, 2011: s.72-73)

Xalqımızın aşıq, milli janrda bəstə edilmiş əsərlərinin ermənilərin özününküləşdirilməsi və sonrasında da guya ki, özləri bu əsəsrləri yazmış kimi tanıdılması ənənəsi barəsində çox sayda sübutlar vardır. Rus etnoqrafı olan İ.Şopen

ermənilərin Azərbaycan musiqisi mədəniyyətinə əlaqəsini bunun kimi izah edirdi: "Guya ehtimal edirlər ki, ermənilərin də milli mahnıları vardır. Amma erməni milləti onu ümumiyyətlə yaddan çıxarıbdır və ya əgər oxuyurlarsa da, əsas olaraq fars və ya tatar ahəngi ilə oxuyurlar. Maraqlıdır ki, mahnıları tatarlardan əxz etmiş ermənilər musiqiçilərin hər birini 8/9 hissəsini təşkil edirlər... Əgər ermənilərin nə zamansa milli rəqsləri var idisə də, indi onları, həmçinin də milli mahnılarını itiriblər. Bu xalqın hal-hazırdakı rəqsləri tatarlardan və dağlılardan götürülmüşdür". (Süleymanlı, 2011: s.73)

Tarixi arxitektura abidələrinin özününküləşdirilməsi və sonrasında da onların sanki öz arxitekturası kimi təbliğ edilməsində də erməni ənənəçiliyini artıq bütün dünyaya bilir. Qarabağ bölgəsindəki alban dini abidələrinin erməni abidələri kimi təqdim edilməsində ermənilər xeyli illərdir ki, çox çalışırlar. Qədim abidələrin özününküləşdirilməsi sahəsində erməni hərəkətlərinin necə nəticələr verdiyini gürcü ədibi İlya Çavçavadzenin "Erməni alimləri və fəryad edən daşlar" əsərində də aydın şəkildə oxumaq olar. Erməni təbliğat materiallarının çoxunun axırında, Dağlıq Qarabağ münaqişəsinin azərbaycanlılar tərəfindən başlandığı və ermənilərin də Dağlıq Qarabağı və ətrafındakı rayonları məcburən ələ keçirməli olduqlarını çatdırırlar. Bunun kimi iddialar Ermənistan hakimiyyətində yüksək vəzifəli insanları tərəfindən ortaya çıxarılır. Elə bu üsul erməni təbliğatının sınaqdan keçirilmiş adətlərindən biridir və bu adətin aktuallığı bu vaxta kimi də qorunmaqdadır. (Süleymanlı, 2011: s.73)

1920-ci ildə Azərbaycan tərəfindən Şuşada qırğınlar edilməsinin iddia olunması da erməni təbliğatının millətçi əsasını açmağa xidmət edən nümunədir. Bunun kimi iddiaların "sübutuna" fokuslanmış faktlara baxılması erməni təbliğatçılarının tarixi hadisələrə necə saxtakarlıqla etdiyini sübut edir.

Tarixi mənbələr sübut edir ki, Azərbaycan Respublikanın torpaqları qədimi insanların yurdu idi. Qarabağ torpaqlarında “Dünyanın ən qədim adamı Füzuli şəhəri yaxınlığında AZIX, TAGLAR mağaraları yaşayış məntəqələri” mövcudluğu dediklərimizi açıq şəkildə sübut edir. Azıx mağarası dünyanın ən ibtidai insan məskəni və qədim insan düşərgələrindən biridir. 1968-ci il tarixində Azıxda

arxeoloq Məhəmmədəli Hüseynov vasitəsi ilə arxeoloji işlər həyata keçirilmişdir. Bu qazıntılar vaxtı Azıxda qədım insanin çənə sümüyünün bir qədəri tapılıb. Həmin bu azıxantrop adlandırılmışdır. Araşdırma işləri sübuta yetirmişdir ki, «Azıxantrop təxminən 250-300 min il bundan öncə yaşayıbdır. (Hüseynov, 2012: s. 19)

Qarabağın işğalından sonra erməni alimləri Azıx mədəniyyətini guya Erməni xalqına məxsus olduğunu tədqiq ediblər və orada tapılan kəllələrin indiki ermənilərin kəllələrinə bənzədiyini sübut edən ciddi elm insanları güldürəcək iddialar səsləndirilib. Azıx mədəniyyətinin tədqiqinə cəlb olunan xarici alimlərə də bu ərazinin ən qədim erməni yaşayış məskəni olduğunu söylətməyə çalışmışlar. Ermənilərin saxta faktlarla, tarixi özlərinə sərf edənlə yazmaq cəhdləri hər zaman mövcud idi. Şübhəsiz ki, tarix yazmaq ermənilərin öhdəsinə buraxılmayacaq qədər ciddi işdir. Bu səbəbdən dünya alimləri onu bu addımları atmaqdan çəkindirməyə çalışıblar. Dünya və Azərbaycan alimləri bunu onlara sübut etdilər ki, təkcə qədim dövrlərdə deyil, orta əsrlərdə də Qarabağ ermənilərə məxsus deyildi.

Erməni tayfasının liderləri və xalqı bunu yaxşı yadda saxlasınlar ki, zaman ötdükcə yalanlar aşkara çıxarılır və bununla da həqiqət öz yerini tapır. Qarabağda erməni tayfasına və onun tarixini özündə göstərən maddi-mədəniyyət abidəsi yoxdur. Onlar Azərbaycan Alban dövlətinə aid olan maddi-mədəniyyət abidələrini özlərinə guya ki, məxsus olduğuna inandırmaq istəyirlər. Bu mümkün belə deyildir. Bu tarixi maddi və mədəni abidələr yalnız Azərbaycan xalqına aiddir.

Rus tarixçi V.Veliçkonun elmi yazısında da ermənilərin alban və gürcü abidələrində real yazıların silinməsi, fərqliləşdirərək özlərininkiləşdirilməsi faktları qeyd edilir. Veliçkon qeyd edir ki, "Erməni himayədarları Ermənistanın təzə tarixini yazmaq, kiçik millətini ucaltmaq səbəbi ilə öz tarixi uğurlarını şişirdib yüksəklərə yüksəldərək, qonşu xalqların daha geniş tarixinə kölgə salmaq istəyirlər." (Məmmədov, 2009: s.134)

Ermənilər tərəfindən vurulmuş zərərin bügunü. Bugünlərdə Qarabağ Dirçəliş Fondu ilə Ekologiya və Təbii Sərvətlər nazirliyinin birgə təşkilatçılığı, "Paşa Holding"MMC, "Paşa Həyat Sığorta" ASC, "Universal Group" MMC, "Paşa Bank"ASC, "Competo" MMC,"Paşa Sığorta" ASC, "Agro Dairy" MMC "Paşa

İnvestments” MMC, “Kapital Bank”ASC, “Azərbaycan Supermarket” MMC və “Paşa Travel” dəstəyi ilə Zəfərdən Dirçəlişə” adlı layihə çərçivəsində işğaldan azad olunmuş ərazilərdə ətraf mühitə vurulmuş zərərin aradan qaldırılması, ekoloji bərabərliyin bərpası səbəbi ilə Zəngilanda meşə massivinin salınması aksiyasına start verilib.

Araşdırma zamanı bunu bir daha qeyd etmət olar ki, biz öz doğma torpaqlarımıza hər zaman diqqətlə yanaşmışıq. İstər hüquqi müstəvidə, istər sosial, istərsə də elektron. Elektron texnologiyanın inkişaf etməsindən istifadə edərək yüzlərlə təbliğat aparılmışdır ki, bunlara misal olaraq göstərilə bilər - Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə “Virtual Qarabağ” İnformasiya–Kommunikasiya Texnologiyaları (İKT) Mərkəzinin istehsal etdiyi yeni məhsullar – “Kəlbəcər – virtual səyahət” 3D filmin, “Qarabağın geyimləri” elektron albomun, “Virtual Qarabağ elektron kitabxanası” və s. Bütün bunlar sadəcə faktlarla göstərilir. Qarşı tərəf isə faktsız və yaxud saxtalaşdırılmış bir neçə məlumat ilə yalan təbliğat aparırdı. Sözsüz ki bu faktları, həqiqətləri bütün Azərbaycan xalqı bilir, məsələ ondan ibarətdir ki, bunu dünyaya çatdırmaq. Öz torpaqlarımızda bizə məxsus mədəniyyət, yaşamımız, qədim yaşayış nümunələrimizi bütün dünyaya yuxarıda qeyd olunan faktlarla çatdıra bilərik.

# III FƏSİL. QARABAĞ TARİXİNDƏ YENİ DÖVR-BƏRPA, QURUCULUQ LAYİHƏLƏRİ

## 3.1. Azad Qarabağın təbliğatında dövlətin rolu

Qarabağ sevgisi, bağımlılığı hər azərbaycanlının mənəvi varlığının ayrılmaz bir parçasıdır. Qarabağ hər zaman Azərbaycan xalqı, dövləti üçün diqqət mərkəzində olmuşdur. İşğal altında olduğu 30 il ərzində də təbliğatı üçün dövlət tərəfindən müxtəlif tədbirlər keçirilərək təbliğatı aparılmışdır. İndi isə müzəffər ordumuzun döyüş əməliyyatları ilə işğaldan azad olmuş azad Qarabağ üçün dövlət səviyyəsində müxtəlif tədbirlər, layihələr hazırlanıb həyata keçirilir. İndi isə bu tədbirlərə diqqət edək.

10 dekabr, 2020-ci il tarixində Azadlıq meydanında, Vətən müharibəsində Qələbəmizə görə Zəfər paradı keçirilmişdir. Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyev, Mehriban Əliyeva, Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan ilə xanımı Əminə Ərdoğan da Zəfər paradında iştirak etmişdilər. Keçirilən Paradda 3000 insandan çox şəxsi heyətin, 150-ə qədər hərbi vasitənin, raket və hava hücumundan müdafiə qurğularının, artilleriya qurğularının, həmçinin də hərbi gəmi və katerlərin göstərişi olmuşdur. Baş tutan tədbirdə, eyni zamanda 44 günlük müharibə dövründə ordumuz tərəfindən məhv edilən Erməni ordusundan əldə etdiyi hərbi qənimətlərin biraz hissəsinin də göstərişi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti öz çıxışını bu sözlərlə yekunlaşdırmışdı: “Hamı məlumatlıdır ki, Ermənistan başçılığı 1 il öncə söyləmişdi ki, “Qarabağ Ermənistandır və nöqtə”. Mən isə söyləmişdim ki, “Qarabağ Azərbaycandır və nida”. Hal-hazırda isə xarici ictimaiyyət görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!” (İlham Əliyevin çıxışı, https://president.az/az/articles/view/48788)

Azərbaycan tarixində böyük iz buraxan həmin parad qələbəmizin göstərişi olmuşdur. Dövlətimiz igid ordusu, birlik xalqı ilə qazanıb əldə etdiyi qələbənin nəticəsini yenidən bütün dünyaya göstərdi. Xarici ictimaiyyət Azərbaycan

ordusunun necə gücə sahib olduğunu gördü. Həmçinin də bu parad vaxtı Azərbaycan və Türkiyə dövlət başçılarının bir yerdə, yan-yana durararaq dünyaya bu dostluğun sarsılmaz, qopmaz olmasını göstərmiş oldular.

05.01.2022-ci il tarixində Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyev Şuşa ili elan etmişdir. Bildiyimiz kimi Azərbaycanın dilbər guşəsi olan Şuşa şəhərini Ermənistanın ordu dəstələri 08.05.1992-ci il tarixində işğal etmişlər. İşğalda olduğu dövrdə Şuşada xeyli sayda mədəniyyət və tarixi abidələr dağıdılmışdır. II Qarabağ müharibəsində isə igid Azərbaycan əsgərləri Şuşanı 08.11.2020-ci il tarixində işğaldan azad etdilər. Şuşa zəfərindən həmən sonra infrastrukturun qurulması ilə birgə, mədəniyyət və tarix abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinə yönəlmiş, Şuşa Şəhərinin Qoruğu İdarəsi yaradılmışdır.

Ölkəmizin mədəniyyət paytaxtı olan Şuşada hal-hazırda şəhərin həqiqi tarixi əsasının bərpa edilməsi istiqamətində böyük tədbirlər, işlər həyata keçirilir. Az bir zamanda Şuşanın ana planının hazır edilməsi, görkəmli şair olan Molla Pənah Vaqifin muzey və məqbərə binasının və büstünün ilkin formasına salınması, Bülbülün ev muzeyinin və Üzeyir Hacıbəylinin heykəli açılışı, həmçinin də burdakı tarixi, memarlıq və dini abidələrinin bərpası ölkəmizin mədəniyyət paytaxtındakı işlərin bir hissəsidir.

Şuşa ili qərarı verilməklə yanaşı Azərbaycan Respublikasının Nazirlər Kabineti “Şuşa İli” ilə əlaqədar tədbirlər cədvəli hazırlayıb həyata keçirilməsi qərarı da verilmişdir.

Daha sonra Nazirlər Kabineti “Şuşa İli” ilə əlaqədar olaraq Tədbirlər Planı”nı hazırlayıb təsdiq olunubdur. Həmin tədbirlər planı mədəni, idman tədbirləri, elm nəşrlərinin, çap vasitələrinin hazır edilməsi, “Şuşa İli”nin beynəlxalq aləmdə təbliğatı ilə bağlı layihələr, tarixi və mədəni abidələrin təmiri, turizm və ekologiya ilə bağlı layihələr, “Şuşa İli” ilə bağlı xatirə resurslarının və internet materiallarının hazır edilməsi kimi quruplara ayrılmışdır. Həmin tədbirlərin cədvəli, tarixivə icraçı orqanı aşağıdakı kimidir.

**Cədvəl 7: Şuşa ili ilə əlaqədar tədbirlər planı**

| Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar |
|---|---|---|
| "Xarıbülbül" beynəlxalq folklor tədbiri | 2022-ci il may | Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Vaqif Poeziya Günləri" | 2022-ci il iyul | Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Yazıçılar Birliyi |
| "Şuşanın 4 fəsli" adında beynəlxalq fotoqrafiya festivalının keçirdilməsi | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu |
| "Şuşa-2022" beynəlxalq incəsənət festivalı | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu |
| "Şuşa yaradıcılıq emalatxanası" | 2022-ci il iyul | Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Televiziya Muğam Müsabiqəsi-2022"nin finalının Şuşa şəhərində olması | 2022-ci il iyul-avqust | Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi, "Azərbaycan Televizya və Radio Verlişləri" Qapalı Səhmdar Cəmiyyəti, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Şuşada bir gün" Respublika fənn olimpiadaları qaliblərinin, ümumi təhsil müəssisələrinin təhsil alanların Şuşa şəhərinə ziyarətlərinin həyata keçirilməsi | 2022-ci il ərzində | Təhsil Nazirliyi |
| Şuşa beynəlxalq velosiped turniri | 2022-ci il may-oktyabr | Gənclər və İdman Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Velosiped İdmanı Federasiyası |
| Məktəblilər arasında "Könlüm keçir Qarabağdan" respublika incəsənət festival-müsabiqəsinin yekununun Şuşada olması | 2022-ci il iyun | Təhsil Nazirliyi |
| "Şuşa İli"nə aid olunmuş, Şuşada olması nəzərdə tutulan layihələrin qrant müsabiqələrinin olması | 2022-ci il ərzində | Gənclər Fondu, Azərbaycan Respublikasının Təşkilatlarına Qeyri-Hökumət Dövlət Dəstəyi Agentliyi |
| "İşıq festivalı. Şuşa"audiovizual layihəsi | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi |
| Xurşidbanu Natəvanın 190 illiyinə silsilə tədbirlərin olması | 2022-ci il avqust | Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Yazıçılar Birliyi |
| Yerli və xarici incəsənət və ədəbiyyat xadimlərinin, KİV nümayəndələrinin, təhsil müəssisələri işçilərinin, Azərbaycanda olacaq fərqli beynəlxalq tədbirlərin iştirakçılarının Şuşa şəhərinə ziyarətlərinin olması, Şuşada yay məktəbinin, gənclər və könüllülər düşərgələrinin olması | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dövlət Turizm Agentliyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Milli Elmlər Akademiyası, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Gənclər Fondu |

| Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar |
|---|---|---|
| Yerli və xarici mütəxəssislərin iştirak etməsi ilə Şuşaya aid edilmiş elmi tədqiqat işlərinin həyata keçirilməsi, məqalə, elmi əsər, monoqrafiya, antologiyaların və s. nəşr edilməsi | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Gənclər Fondu |
| Azərbaycan Dövlət Film Fondunda olan Şuşa ilə əlaqədar film və çəkilişlərin bərpası, nümayiş olunması | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| Qoşulmama Hərəkatına üzv ölkə şəhərlərinin "Şuşa Assambleyası"nın olması | 2022-ci il iyul-noyabr | Xarici İşlər Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| Şuşa şəhərinin fəqli ölkələrin şəhərləri ilə qardaşlaşmış şəhər statusu əldə edilməsi ilə əlaqədar uyğun işlərin təşkil edilməsi | 2022-ci il ərzində | Xarici İşlər Nazirliyi |
| "Şuşa 270 il" adında filmin çəkilməsi | 2022-ci il ərzində | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi |
| Şuşa şəhərinin investisiya potensialının tanıdılması siyasəti yerli və xarici investorların iştirak edilməsi tədbirlərin həyata keçirilməsi (Karabakh İnvestment Roadshow) | 2022-ci il ərzində | İqtisadiyyat Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Şuşa 270". Şuşanın və ətraf yerlərinə görə turizm məhsullarının yaradılması | 2022-ci il ərzində | Dövlət Turizm Agentliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Şuşa 270 il" adında 3 markadan poçt markası blokunun və 3 növdə markalı poçt zərflərinin, həmçinin "Xurşidbanu Natəvan-190 il" adında poçt markasının dövriyyəyə buraxılması | 2022-ci il ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| "Azərbaycanın mədəniyyət paytaxtı-Şuşa" portalının olması | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| Azərbaycanda və xarici ölkələrdə, həmçinin beynəlxalq təşkilatların mənzil qərargahlarında "Şuşa İli"nə aid edilmiş tədbirlərin, elmi konfrans, simpoziumların olması və təbliğat yönlü işlərin edilməsi | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Milli Elmlər Akademiyası, Diasporla İş üzrə Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Gənclər Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |

| Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar |
|---|---|---|
| "Dünya məşhurları Şuşada" adında layihənin olması | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirlıyi, Gənclər və İdman Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| Şuşanın 270 illiyi şərəfi ilə "Xatirə nişanı"nın təsis olunması | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi |

Mənbə: (Əsədov, 2022, https://nk.gov.az/az/document/5959/)

12 may, 2021-ci il tarixində Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhəri "Xarıbülbül" musiqi festivalına ev sahibliyi etmişdir. Qədim mədəniyyət beşiyi adlanan Şuşa şəhərimiz 29 ildən sonra yenidən dirçəlmiş, gözəl abu-hava yaranmışdır. Festivalda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Mehriban Əliyeva, onların qızları Arzu Əliyeva və Leyla Əliyeva Şuşada Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalında iştirak ediblər. Festivalda iştirak edən ifaçılar milli musiqilərimizi səsləndirməklə yanaşı milli geyimlərimizi də geyinərək milli abu-hava yaratmış, bütün dünyaya milli mədəniyyətimizi nümayiş etdirmişlər.

18 sentyabr, 2021-ci il tarixində ilk dəfə Şuşada Milli Musiqi günü keçirilib. Tədbirdəki insanlar Natəvan bulağını və xalq artisti Bülbülün evini ziyarət ediblər. Dahi Üzeyir Hacıbəylinin hər il ad günündə keçirilən tədbir, bu dəfə isə onun heykəlinin ucaldığı parkda keçirilib. Sonra isə Fikrət Əmirov adına olan Mahnı və Rəqs ansamblının Xalq Çalğı Alətləri Orkestri ifası ilə Üzeyir Hacıbəyli, Süleyman Ələsgərov, Vasif Adıgözəlov və digər xalq bəstəkarların ifaları səslənib. Xalq artistimiz Mənsum İbrahimov, əməkdar artistlərimiz Qoçaq Əsgərov, Nərgiz Kərimova, Arzu Əliyeva, Anar Şuşalı və digər ifaçılar milli musiqilərimizi səsləndiriblər.(Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, http://culture.gov.az/az/umumi-xeberler/13731)

Bu tədbir milli musiqi sənətimizin necə əsrarəngiz nümunələri olduğunu və bütün bu musiqi mədəniyyətinin bizə məxsus olduğunu bütün dünyaya təbliğ edir.

20 mart, 2022-ci il tarixində Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil olunan ilk avarçəkmə

təlim-məşq prosesinin rəsmi açılışı həyata keçirilib. İlham Əliyev və Mehriban Əliyeva tədbirdə olublar. İlham Əliyev təlim-məşq tədbirinin rəsmi açılışı olan düyməni basdıqdan sonra öndəki metal konstruksiyadan “QARABAĞ AZƏRBAYCANDIR!” yazısı yazılmış banner açılıb və səmaya Azərbaycan bayrağı rənglərində 7 min şar havaya açılıb və daha sonra idmançılar məşqə başlayıblar.

Həmçinin, xüsusi ilə qeyd olunmalıdır ki, Prezident İlham Əliyevin və Mehriban Əliyevanın Suqovuşan qəsəbəsinə bu ziyarəti işğaldan azad edilən bu ərazilərdə birinci idman tədbirinin təşkili ilə də yaddaşa qeyd olundu.

Daha sonra isə Azərbaycanın dövlət başçısı İlham Əliyev və Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində Novruz bayramının bayram tonqalını alovlandırıblar. Sonra isə dövlət başçısı İlham Əliyev Azərbaycan xalqını bayram münasibəti ilə təbrik edib.

Xocalı işğal olunduqdan sonra necə ki hər il Xocalı soyqırımının anım gününə aid Bakıda ümumxalq yürüşü keçirilib indi də torpaqlarımızın azad olunmasından sonra da 26 fevral, 2022-ci il tarixində Xocalı soyqırımının ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib. Öncəki illər kimi bu il də Prezident İlham Əliyev və Mehriban Əliyeva da  bu yürüşdə olublar. Yürüş iştirakçıları Xətai rayonunda yerləşən Xocalı abidəsinin yerləşdiyi əraziyə gediblər. Xüsusi ilə bildirilməlidir ki, Xocalı soyqırımının ildönümü olan 26 fevral xalqımızın birlik olmağının simvolu olub.

II Qarabağ müharibəsindən sonra 2-ci il dönümüdür ki, Azərbaycan xalqı Bakıda yerləşən Xocalı soyqırımının abidəsini qisası alınmış, qürurlu şəkildə yad edir, ona görə ki, düşmən tərəfdən hər bir şəhidimiz olmaqla, Xocalı soyqırımının həlak olanlarının, yaralananların da qisası alınıbdır. İlham Əliyev də söylədi ki: “Biz Ermənilərin cavabını döyüş meydanında verdik, hər bir şəhidimizin qisasını aldıq, hər birinin qanı yerdə qalmadı”.

Xalqımız Xocalı soyqırımını qətiyyən unutmayıb və heç bir zaman da unutmayacaq. Bütün xarici ictimaiyyətin gözü önündə olmuş, şiddəti və qansızlığı vasitəsilə seçilən olan ağır cinayət üçün siyasi və hüquqi məsuliyyət birbaşa olaraq Ermənistanın həmin zamandakı rəhbərliyinin üzərinə düşür. Soyqırım zamanı 613

nəfər qətlə yetirilmişdi, 1275 nəfər isə girov götürülmüşdü, 150 nəfər insanın talehinin necə olduğu indi də bilinmir. Qətl edilənlərin 63 nəfər insanı uşaq, 70 nəfər insanı ahıl, 106 nəfəri qadındır. Soyqırım nəticəsi ilə 8 ailə bütünlüklə həlak olub, 25 uşaq isə iki valideynini də, 132 nəfər uşağın da valideynlərindən biri həlak olubdur.

Xocalı faciəsinin bütün xarici ictimaiyyətə tanıdılması daima Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətləri daxilindədir. Həmin amansız faciyənin dünyaya çatdırılmasında həmçinin Azərbaycanın 1-ci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti olan Mehriban Əliyevanın da mühim fəaliyyəti vardır. Fondun "Xocalıya ədalət!" adlanan layihəsinin nəticəsi ilə dünyada 17 ölkə, ABŞ-ın 24 ştati, İslam Əməkdaşliq Təşkilati Xocalı şəhərində ermənilərin törətdiyi soyqırımda törədilmiş cinayətləri soyqırım olaraq taniyan qərarlar və qətnamələr vermişlər. "Xocalıya ədalət!" layihəsinin məqsədi isə beynəlxalq aləmi Xocalı faciəsi barəsində informasiya vermək, soyqırıma dünya ictimaiyyətində mənəvi cəhətdən və siyasi tərəfdən dəyərləndirilməsinə, faciəvi soyqırımda həlak olanların xatirəsinin anılmasına çatmaqdır.

Bu il isə dövlətimiz, xalqımız dövrümüzün ən dəhşətli soyqırımlarından biri olan Xocalı soyqırımında həlak olanların xatirəsini qalib dövlət, qalib xalq olaraq ziyarət edir. Düşməndən hər bir şəhidlərimiz kimi, Xocalı soyqırımının qurbanlarının da qisası alınmışdır.

Erməni işğalından azad edilmiş torpaqlarda “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələri nəzərdə tutulmuşdur. “Ağıllı kənd” texnologiyasının tətbiq edilməsi bu ərazilərdə sosial innovasiyaların, kiçik sahibkarlığın inkişaf olunmasına da töhvə verəcək və Qarabağ regionunun eyni zamanda texnoloji innovasiya-startap mərkəzi olması kimi cəlbediciliyini də artıracaq. “Ağıllı kənd” və “Ağıllı şəhər” layihələri artıq bir çox ölkələrdə və şəhərlərdə qurulmuşdur. Nümunə olaraq göstərilə bilər ki, Sinqapur, Nyu-York, London və Amsterdam kimi şəhərləri misal gətirmək olar. Fikir verdikdə görə biləcəyimiz məqamlardan biri odur ki, bu şəhərlər həm də turizm mərkəzlərindən hesab olunur. Bu da o deməkdir ki, “Ağıllı kənd” və “Ağıllı şəhər”

layihələri gələcək zamanda Qarabağın gözəl məkanlarının dünyada daha da tanıdılmasına kömək edəcəkdir.

Hal-hazırda regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olması ölkənin qlobal bazarlara çıxışı imkanlarını yüksəldəcək, həmçinin də işğaldan azad edilmiş zonaların inkişafına əhəmiyyətli güc verəcək. İşğaldan azad olunan əzəli torpaqlarımızda üç beynəlxalq hava limanı inşa edilməkdədir. Füzuli aeroportu demək olar ki, istifadəyə verilib. Zəngilan hava limanının təməli artıq qoyulub, Laçında isə inşaat etmək məqsədi ilə yer seçimi gedir. Hal-hazırda Qarabağda nəyin ki bərpa quruculuq işləri davam etdirilir hətta artıq market, restoran, çörək sexi və s. obyektlər fəaliyyət göstərir.

Digər bir bərpa-quruculuq işlərindən biri də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlinin qoyulmasıdır. Torpaqların minalardan təmizlənməsindən, məhv edilmiş tikililərin qalıqlarının toplanmasından, çoxillik bitkilərin budanmasından dərhal sonra bu ərazidə abadlıq işlərinə başlanılacaq və buradakı torpağa uyğun bitkilər əkiləcəkdir. Suqovuşan Turizm Kompleksindəki işlər bu ilin sonuna qədər bitəcək və gələn mövsümdə artıq turistlərə xidmət göstərəcək.

(İlham Əliyevin çıxışı, https://president.az/az/articles/view/55657)

Tərtər rayonunun Suqovuşan qəsəbəsində də yeni məscid tikiləcək. 10 mart, 2022-ci ildə Prezident İlham Əliyev və Mehriban Əliyeva məscidin təməlini qoyublar. Məscidin ümumi sahəsi 0,6 hektar olan kompleksə məscid binası, dəstəmaz otağı, köməkçi bina və avtodayanacaq aiddir. İki mərtəbədə olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr olacaq. Məsciddə kişilər və qadınlar üçün nəzərdə tutulan ibadət zalının olmağı planlaşdırılıb. (İlham Əliyevin çıxışı, https://president.az/az/articles/view/55655)

20 mart, 2022-ci ildə "Azərişıq" ASC tərəfindən Prezident İlham Əliyev və Mehriban Əliyevanın iştirakı ilə  Azərbaycanda ilk dəfə olan Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq yeni izolyasiyalı, kənar müdaxilələrdən qorumalı və xərcləri daha aşağı olan kabel xəttinin təqdimatı həyata keçib.

13 fevral, 2022-ci il tarixində Prezident İlham Əliyev və Mehriban Əliyeva 210 çarpayıdan ibarət Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması tədbirində iştirak etmişlər. Qeyd olunub ki, gələn mərhələlərdə Ağdam rayonunda daha bir neçə sayda səhiyyə binasının inşası düşünülmüşdür. Gələcək zamanda bu ərazilərdə Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası,Təcili Tibbi Yardım Stansiyası, modul tipli xəstəxana, 20 çarpayılıq Narkoloji Dispanser,onkoloji, 50 çarpayılıq psixiatriya və 50 çarpayılıq vərəmə qarşı xəstəxanalar, 20 həkim məntəqəsi və ya kiçik həcmli Ailə Sağlamlıq Mərkəzi, Regional Perinatal Mərkəz və QİÇS-lə Mübarizə Mərkəzi, Regional Tibb Kolleci də inşa olunması nəzərdə tutulmuşdur.

Həmçinin də qeyd edilməlidir ki, Qarabağda quruculuq işlərinin həyata keçirilməsinə görə 2,2 milyard manat xərclənməsi qərarlaşdırılıbdır. Bu məbləğin xərclənməsi ilə bu əzəli torpaqlarımız dirçələcək, turizm məkanına çevriləcək, beynəlxalq layihələr keçiriləcək, güclü iqtisadi bölgə olacaq.

Qarabağda tikinti-bərpa işləri planlı bir şəkildə təşkil edilir və bu məsələ dövlət başçısının diqqət mərkəzindədir.

Qarbağda həyata keçirilən bərpa və quruculuq işləri də bütün dünyaya onu çatdırır ki, biz öz yurd-yuvalarımıza qayıtmaq üçün ən qısa zamanı gözləyir, öz əzəli torpaqlarımıza hər zaman diqqət, qayğı göstərərək həmin torpaqları dirçəldirik. Amma keçmiş 30 il ərzində düşmən tərəf həmin torpaqlara zərər verməkdən başqa heçnə etməmişdir.

### 3.2. Qarabağ Azərbaycandır təbliğatı üçün tövsiyyə edilən layihə

Qarabağ üçün istər işğal müddəti dövründə, istərsə də işğaldan azad olunduğu dövrümüzdə müxtəlif layihələr işlənib həyata keçirilir. Hər birinin məqsədi bizim qədim yaşayış məskənimiz olan, qədim mədəniyyətə sahib olan bu dilbər guşəni bütün dünyaya "Qarabağ Azərbaycandır!" həqiqəti ilə tanıtmaq, onu daha da dirçəltmək.

Belə layihələrdən biri İlham Əliyevin 07.07.2011 – ci il tarixli Sərəncamı ilə "Azərbaycan gəncliyi 2011 – 2015 – ci illərdə" Dövlət Proqramının 6.2.2 yarımbəndinə uyğun olaraq Gənclər və İdman Nazirliyi və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dəstəyi və yeddi gənclər təşkilatının vasitəsi ilə "Virtual Qarabağ" İnformasiya – Kommunikasiya Texnologiyaları Mərkəzinin əsası qoyulmuşdur. 16.12.2013-cü il tarixində baş tutan təqdim edilmə tədbirində "Virtual Qarabağ" İnformasiya – Kommunikasiya Texnologiyaları Mərkəzi eyni zamanda www.virtualkarabakh.az internet saytı xalqa tanıdılmışdır. Bu təbliğat mərkəzinin yaradılmasındakı başlıca amil Qarabağa məxsus olan ümumiləşdirilmiş internet məlumat şəbəkəsinin təşkil olunmsasıdır. Layihə çərçivəsində olan virtualkarabakh.az portalı da hazırlanıb istifadəyə verilmişdir. Portalın məqsədi isə Qarabağ doğrularını elektron kontentlərlə internet platformasında tanıdılmasına şərait yaratmaqdır.

02.12.2014-cü il tarixində Gənclər və İdman Nazirliyinin, Heydər Əliyev Fondunun dəstək olması ilə "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyalarının təşkil etdiyi "Qarabağın səsi" beynəlxalq layihə işinin təqdim edilməsi baş tutmuşdur. Layihənin məqsədi isə Azərbaycanın qədim mədəniyyətinin inkişaf olunması, hər zaman yaşatmaq və hər kəs tərəfindən tanınması, həmçinin, Qarabağ məsələsi ilə əlaqəli doğruların bütün ölkələrin əhalisinə çatdırılmasından ibarətdir. ( https://www.virtualkarabakh.az/az.html )

"Qarabağın səsi" layihəsində yer alan musiqilər qədim torpaqlarımızın Ermənistan ordu dəstələrinin zamanında işğal etdiyi torpaqlarına həsr olunmuşdur. Musiqilərin müəllifi isə Rain Sultanov olmuşdur.

27 İyulun 2021-ci il tarixində Qarabağ Dirçəliş Fondu uzun zaman müddətində davam edən erməni işğalı nəticəsində xalqımızın Qarabağda olan maddi-mədəni irsinə, regionun təbii sərvətlərinə dəymiş zərərə həsr edilmiş "Karabakh.Center" layihəsində olan fotoşəkillərdən ibarət sərgi təşkil dilib.

Daha öncə ictimaiyyətə nümayiş olunan "Karabakh.Center" layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın birbaşa təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri və Ermənistanın işğalının nəticələri barəsində obyektiv informasiyaların yığılması və ictimaiyyətə çatdırılması məqsədilə yaradılmışdır.

"Karabakh.Center" internet adresində 10 mindən çox videogörüntü və fotolar yerləşdirilib. Bütün videolar və fotoşəkillər internet adresinin "Urbisid" bölməsində yerləşdirilib. Bölmədə, eyni zamanda tarixi və memarlıq abidələrinin işğaldan əvvəl çəkilmiş xeyli sayda fotoşəkli də yerləşdirilib.

Bütün bu layihələri nəzərə alaraq daha fərqli "Qarabağ Azərbaycandır!" təbliğatı üçün layihə təklif edirəm. Bu layihə həm turistik mərkəz olar, həm də "Qarabağ Azərbaycandır!" təbliğatı üçün möhtəşəm təbliğat nümunəsi olar. Necə ki Türkiyədə "MiniaTürk" adlı bir şəhərcik var bizdə də Qarabağ abidələrindən ibarət bir şəhərciyin olması böyük təbliğat məkanının olması deməkdir . Belə ki, layihəni aşağıdakı kimi təqdim edirəm:

- Layihənin adı: "Mini Qarabağ" və ya "Mini Karabakh" olması nəzərdə tutula bilər.
- "Böyük mədəniyyətin şəhərciyi" sloganı ilə olduqda layihənin məğzini ifadə edər.
- Qarabağda yerləşən bütün abidələrdən ibarət kiçik maketlər hazırlanıb yerləşdirilməsi daha məqsədə uyğun ola bilər.
- Hər bir abidənin yanında abidə haqqında müxtəlif dillərdə məlumatın yazılması daha yaxşı olar.
- Şəhərcikdə dayanacaq, restoran, hədiyyəlik kiçik maketlər satılan yer, açıq havada tədbir yeri və s. inşa oluna bilər.
- Xarı Bülbülün böyük maketinin də burada olmağı gözoxşayan olar.

- Xarı Bülbül formasında musiqi səhnəsi hazırlanıb burada yerləşdirildikdə həmin yerdə milli musiqilərimizin səsləndirilməsi bura gələnlər üçün daha da maraqlı olar.
- Qarabağda inşa olunması daha məqsədə uyğun olar.

Bu şəhərcikdə I və II Qarabağ müharibəsinin şəhidlərinin, əlillərinin şəkillərindən ibarət ayrıca bir guşənin olması bura gələn turistlərə onların tanıdılması hər zaman ən qabaqcıl məqsədlərimizdən biri olmalıdır. Şəhidlərinin, əlillərinin tanıdılması ilə yanaşı, şəhərciyə daxil olduqda rəşadətli orduzumuz döyüş əməliyyatları həyata keçirərək işğaldan azad etdiyi bu torpaqların, bu abidələrin təbliğatında onların döyüş əməliyyatlarından kadrlar, video roliklərin olması onların əməyinin nümayişi olar. Eyni zamanda döyüşlərdən səslər, rəşadətli ordumuzun torpaqlarımızı işğaldan azad etmək üçün atdığı top səsləri, dronla edilmiş zərbənin səsləri olması bu torpaqları, abidələri necə öz gücümüzlə işğaldan azad etməyimizin göstərişi olar.

Həmçinin də siyahısı verilmiş bu abidələrin tarixi haqqında şəkilləri, videoları ilə Azərbaycan dövlət himni ilə birlikdə gündəlik olaraq təbliğat xarakterli video çarx ölkə televizvasında səsləndirilməsi milli mədəniyyətimizin təbliğində daha məqsədə uyğun olar. Bu video çarxlar mütəmadi olarak reklam aralarında, xəbər verlişlərindən əvvəl olması yaxşı olar. Məsələn AZTV xəbər verlişləri bu saatlarda olur: 10:00, 14:00, 16:00, 18:00, 19:00, 19:30, 20:00. Qeyd olunan bu saatlardan bir neçə dəqiqə əvvəl nəzərdə tutulan video çarx nümayiş oluna bilər.

Bu şəhərciyin inşa olunması həm öz xalqımız üçün daha çox informasiya qaynağı olması, şəhərciyi gəzərək gözəl və doğma hisslər hiss etmək, azyaşlılarda vətənə daha da sevgi, abidələrimizi dəqiqlə tanıyıb tarixini öyrənmək, həm də ölkəyə gələn turistlərə Qarabağı tanıtmaq, tarixini dəqiqliklə təbliğ etmək üçün böyük fürsət olar.

Həmin abidələrin siyahısı aşağıdakılardır:

Ağdam Rayonunda yerləşən abidələr aşağıdakılardır:

1.Ağdam Cümə Məscidi - Ağdam rayonunun mərkəzində yerləşən tarixi-memarlıq abidəsidir. 1868–1870-ci illərdə inşa edilmişdir.

2.Qutlu Musa türbəsi həmçinin də Xaçındərbətli türbəsi – Buranın girişindəki qapısında olan kitabə türbənin 1314-cü il tarixində Şahbənzərin vasitəsi ilə Musa Qutlunun məzarı üstündə inşa edildiyini qeyd edilir. (Məmmədov, 2015: s.12).

3.Pənah Xanın türbəsi

4.Xürşudbanu Natəvanın qəbirüstü abidəsi

5.Şahbulaq məscidi - Ağdam rayonunda Şahbulaq adlanan ərazidə olan tarixi-memarlıq abidəsidir. Bu məscid Pənahəli xan tərəfindən 1751-1752-ci illərdə inşa olunmuşdur.

Cəbrayıl Rayonunda yerləşən abidələr aşağıdakılardır:

6.Xudafərin körpüsü - Cəbrayıl rayonunda, Araz çayının sol sahilində yerləşir. Sahəsi 1049.8 kv. , tərkibinə isə 1 şəhər, 2 qəsəbə və 92 kənd daxildir.

Füzuli Rayonunda yerləşən abidələr aşağıdakılardır:

7.Qarğabazar Karvansarası - Bura 1681-ci il tarixində Füzulidəki həmən adlı kəndinin mərkəz hissəsində inşa olunmuşdur. Memarlığına əsasən bu karvansara Alban dövründəki memarlıq ənənələrinin bənzəridir. Bu kəndin işğal edilməsindən sonra dərhal ermənilər həmin qədim və tarixi karvansarasın mal tövləsi etmişdir.

8. Mirəli Türbəsi – Qarabağın səfalı yerlərindən biri olan Füzulinin Aşağı Veysəlli kəndində olan təpədə inşa olunan bu türbə əhali tərəfindən Mirəli türbəsi adı ilə tanınmışdır.

9.Hacı Ələkbər məscidi – Füzulidə yerləşən bu məscidi memar Kərbalayı Səfixanın birinci layihələrindəndir. Giriş qapısının üstündə “Memar Kərbalayı Səfixan Qarabağinin işidir” – qeyd olunmuşdur. Burada tikilinin inşa edilmə zamanı da – hicri dövrü ilə 1307-ci il tarixi qeyd olunub. Həmin zamanı miladi təqviminə çevirdikdə isə 1889-90-cı illəri əhatə edir. Hacı Ələkbər xeyriyyəçi olmuşdur.

Kəlbəcər Rayonunda yerləşən abidələr aşağıdakılardır:

10.Xudavəng monastırı - Azərbaycan Albaniyası memarlığının gözoxşayan nümunələrindən biri “Xudavəng” monastır kompleksidir. Kəlbəcərin 29 kilometrliyində inşa edilən tarixi Alban monastırı VI-VII əsrlərə məxsusdur. Monastrın ilk tikintisinin bu dövrə aidliyi burdakı qazıntılar müddətində aşkar edilmiş saxsı əşyaların öyrənilməsi zamanı aşkara çıxmışdır.

11. “Gəncəsər” - əvvəlki Ağdərənin Vəngli kəndi ərazisində inşa edilən XIII dövrə məxsus xristian Alban monastırıdır. Bura Gəncədağ dağında inşa edilmiş və adı da buna əsasən adlandırılmışdır. Dağın adı ərəb dilinə olan kənisə - “məbəd”, Azərbaycan dilində olan “dağ” sözündən ibarətdir. Kənisə sözünün ərəb dilindəki varlığı həmin yerdə ərəblərin qalması ilə əlaqəli deyildir. Belə mənaya gəlir ki, XII əsrdə bizim lüğətimizdə kənisə (kənsə, gənzə) kəlməsi var idi, dilimizdən həmin bu kəlmə dağın adı olmuşdur. (Məmmədov, 2015: s.39).

Laçın Rayonunda yerləşən abidələr aşağıdakılardır:

12. “Ağoğlan” məbədi - V-VI əsrlərə aid olan alban monastırı “Ağoğlan” məbədi Laçın rayonunun ərazisində, Ağoğlan çayının sahilində yerləşmişdir.

13. Məlik Əjdər türbəsi (XIV əsr)

14. Laçın Tarix-diyarşünaslıq muzeyi

Qubadlı Rayonunda yerləşən abidələr aşağıdakılardır:

15. Laləzar körpüsü (1867-ci il)

Şuşada yerləşən abidələr aşağıdakılardır:

16. Yuxarı Gövhər ağa məscidi və ya Şuşa cümə məscidi - Şuşa şəhərinin mərkəzində yerləşən, şəhərdə tikilmiş ən qədim məsciddir və ilk dəfə 1750-ci illərdə qamışdan inşa olunmuşdur. Sonra isə 1768–1769-cu illərdə qamış məscidin yerində daşdan yeni məscid inşa edilmişdir. XIX əsrin I yarısında Gövhər ağanın maddi dəstəyi ilə İbrahimxəlil xanın yararsız halda olan məscidinin yerində qoşa minarəli üçüncü məscid inşa olunmuşdur. ( Bax: şəkil 1)

17.Pənahəli xan sarayı - Şuşanın mərkəzində yerləşən və Qarabağ xanlığının banisi olan Pənahəli xanın iqamətgahı olmuş qədim saraydır. Pənahəli xanın zamanında saray xanın iqamətgahı olmaqla birlikdə, həmçinin də xan ailəsi ilə birlikdə bu sarayda yaşamışdır.

18. Xan qızı Natəvanın evi - Şuşa şəhərində inşa olunan, XVIII əsrə aid tarix-memarlıq abidəsidir.

19. Aşağı Gövhər ağa məscidi - Şuşa şəhərinin Qapan meydanında inşa edilmiş cümə məcididir. Məscid ilk dəfə Şuşanın 1855-ci ilə aid baş planında yaxınlıqda

yerləşən mədrəsə ilə birlikdə qeyd edilir. 1874-1875-ci illərdə əsaslı yenidənqurma işləri aparılmışdır.

20.Xan qızı Natavanın bulağı

21.Mamay məscidi - XIX əsrdə Şuşanın Mamayı məhəlləsində tikilmişdir.

22.Molla Pənah Vaqifin Muzey-Məqbərə kompleksi və ya Vaqif türbəsi - Şuşa şəhərində yerləşir. Türbənin tikintisi 1982-ci ildə bitmiş və abidənin açılışında həmin vaxt AKP MK-nın sədri Heydər Əliyev də iştirak etmişdir.

23.Şuşa qalası - Şuşanın qədim mərkəzininə məxsus olan qala divarlarıdır. İnşa edilmiş qala şəhərin banisi Pənahəli xana görə Pənahabad qalası adlandırılmışdır. Sonra isə bu qala yalnız Qala adlandırılmışdır. Biraz müddətdən sonra Şuşa qalası, daha da sonra isə yalnız elə Şuşa adlandırılmışdır.

Xocalı rayonunda yerləşən abidələr aşağıdakılardır:

24. Əsgəran qalası

Xocavənd rayonunda yerləşən abidələr aşağıdakılardır:

25. Amarax qəsr kompleksi

26. Azıx mağarası - Azərbaycanın qədim yaşayış məskəni, ən qədim insanın yaşadığı, uzunluğu 190 metr, geniş arxeoloji qazıntıların aparıldığı Azıx mağarası Xocavənd şəhərinin Füzuli rayonu yaxınlığında, Azıx kəndinin isə cənubi-şərqində yerləşir.

Zəngilan rayonunda yerləşən abidələr aşağıdakılardır:

27. Səkkizguşəli türbə (XIV əsr)

Abidələr ona görə rayonlar üzrə qruplaşdırılmışdır ki, şəhərcikdə hər bir rayonun öz ərazisi olması elə bir hiss yaradar ki, sanki həmin rayona gedib abidələrə baxmış olunur.

Bu da qeyd edilməlidir ki, düşmən tərəf işğal altına saldığı torpaqlardakı tarixi abidələrimizi dağıtmış, toponimlərimizi birmənalı formada dəyişdiriblər. Ermənilərin qəddar hərəkətləri Beynəlxalq aləmdə qəbul edilmiş “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il tarixli Haaqa Konvensiyasının, “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il tarixli Avropa

Konvensiyasının, “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun 1972-ci il tarixli Konvensiyasının tələbinə ziddiyyət təşkil edir.

Bütün bunlara baxmayaraq, ermənilər tarixi yazını dəyişdirə bilməyəcəklər və bilməmişlər də. Ona görə ki, həqiqi tarix məhz həqiqətdir, həqiqət isə budur: Qarabağ Azərbaycanın tarixi torpağı, ayrılmaz bir hissəsidir.

Ümumiyyətlə, qədim abidələr bir millətin, dövlətin keçmiş tarixinə aydınlıq saçan , millətin, millətin, dövlətin yaddaşında hər zaman yeni qalan, bugün var olan keçmişdirlər. Bu qədim abidələr xalqın yalnız qədim yox, eyni zamanda mənəvi cəhətdən müqəddəs məkanlardır. Buna əsasən də ermənilərin tarixi-mədəni abidələri, həmçinin məbədlərimizi vəhşicəsinə dağıdıb məhv etmələri anlaşılandır. Onlar buna əsasən bizim minilliklər müddətində yaşadığımız ərazilərdən tarixi keçmişimizi, mənəvi yaddaşımızı darmadağın etmək istəmişlər. Bütün bu abidələr qədim mədəniyyət abidələrimizdir. Bu tarixi hər zaman qorumalı və bütün dünyaya tanıtmalıyıq.

Digər bir Layihə təklifi belədir ki, işğaldan azad olmuş ərazilərə turizm cəlb etmək, bu əraziləri daha da inkişaf etdirmək üçün müxtəlif oyun növlərinin burada yarış formasında keçirilməsidir. Hər bir oyun uyğunluğu cəhətdən müxtəlif ərazilərdə keçirilə bilər. Həmin oyunlar aşağıdakılar ola bilər:

- Voleybol
- Sərbəst güləş
- Badminton
- Akrobatika gimnastikası
- Güləş
- Qılıncoynatma
- Turinq yarışları
- Çövkən
- Kartinq və s.

Xüsusi ilə qılıncoynatma qədimdən adət olduğundan xüsusi geyimlərlə yəni milli geyimlərimizlə, kənarda atlarla həyata keçirilə bilər.

Bu yarış  oyunları ilə yanaşı layihəyə maraq cəlb edən, iştirak edən türistlərə həm əylənməsi cəhətdən, həm də qədim adət-ənənəmizdə olan oyunları nümayişi üçün aşağıdakı qədim meydan oyunları da keçirilə bilər.

- Atüstü oyunlar
- Yekbə oyunlar
- Sim oyunları
- Kəndirbaz oyunu
- Gözbağlıca oyunu
- Şahmat
- Nərd, dama oyunları

Necə ki, Formula 1 oyunlarının ölkəmizdə keçirilməsi iqtisadiyyata yüksək göstərdiyi təsirlərə malikdirsə bu oyunların da Qarabağ ərazisində keçirilməsi buranın iqtisadiyyatında yüksək təsir edəcəkdir.

Formula oyunları ölkəmizin iqtisadiyyatına ümumilikdə 277,3 milyon dollar qazanc qazandırıbdır. Bu göstəriş fərqli sahələrdə, həmçinin yüksək xidmətlər, otel, mehmanxana, nəqliyyat, restoran, sosial və mədəni xidmətlər, kənd təsərrüfatı, poçt və telekommunikasiya və başqa sahələrdə qeyd olunmuş gəlirlər aiddir. Bu gəlirlərdə əsas yeri isə turizm sahəsi tutur. İlham Əliyev birinci yarışdan 24 faiz, 2-dən isə 26 faiz artımın olmasını qeyd edibdir. Bu müddətdə ümumilikdə birbaşa gələn  gəlirlər 164,2 milyon dollar olubdur.

Mənbə:(https://www.bakucitycircuit.com/az/news/pwc-study-reveals-277-million-usd-f1-benefit-to-baku )

Bu da o deməkdir ki, bu oyunlar da bu göstəriciləri verə bilər. Turistləri cəlb edərək həm buranın bizim qədim torpaqlarımız olmasını aşılaya, həm də turizm potensiyalı olmasını göstərə bilərik. Eyni zamanda kommersiya qazancları, ölkənin, bölgənin tanıtımı, turizm inkişafı və sosial dəstək baxımından effektiv olacaq.

Ümumiyyətlə hər iki layihənin həyata keçirilməsində ixtisaslı kadrlar, peşəkar mütəxəssislər nə qədər çox olarsa, nə qədər təbliğata yönlənilsə o qədər effekt verəcək.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

“Qarabağ Azərbaycandır!” mövzusu xeyli əhatəli bir mövzudur və həyata keçirilmiş bu tədqiqatdan sonra isə müəyyən nəticələrə gəlinmişdir.

Tədqiqatın “Qarabağ təbliğatının tarixi-iqtisadi aspektləri” fəsilində alınan nəticə ondan ibarətdir ki, dövlətin, siyasi güc mərkəzlərinin nəzərdə tutduğu məsələlərin daha böyük əhali qrupunun inamına çevrilməsi, onlara qəbul etdirilməsi üçün informasiyanın, təbliğatın gücü yüksəkdir. Növü, davamlılığına əsasən təbliğat ictimai rəyin yaranıb formalaşmasında vacib rola sahibdir. Eləcə də xüsusən informasiya mənbələrindən istifadə edə bilməyən əhali kütləsinə aparılan təbliğatın növündən asılı olaraq yeni bir ictimai rəyi əsaslandırmaq mümkündür. Təbliğat düşmən tərəfin canlı kütləsini həlak etmir. Amma düşmən tərəfin canlı kütləsinin fəaliyyətinin neytrallaşdırılması, silahlı çəkişmənin səmərəliliyinin azaldılması müharibə seçmiş qarşı tərəfin təklənməsi, xarici dəstəkdən məhrum olunması üçün həyata keçirilən təbliğat silahlı mübarizənin həyata keçirilməsindən daha effektiv məna kəsb edə bilər. Həmçinin də Qarabağın iqtisadi göstəricilərinin il keçdikcə inkişaf etməsi nəticələri əldə olunmuşdur. İstehsal hasilatı, investisiya qoyuluşu göstəriciləri bu ərazilərdə artmışdır.

“Qarabağ Azərbaycandır!” təbliğatının bugünü və sabahı” adlı fəsildən əldə edilən nəticə isə həm Qarabağ məsələsinin, həm də başqa ictimai və siyasi məsələlərin uğurla davam etdirməkdə təbliğatın vəzifəsinin mühüm dərəcədə yüksəlməsi inkişaf edən, qloballaşan dünyamızda təbliğatın əhatəliliyini, az bir müddət ərzində daha böyük insan qüvvəsinə təsir etmək özəlliyinin artması ilə bağlı olmasıdır. Zamanındakı Qarabağ məsələsinin təbliğat istiqamətindən bəhs edərkən bəhs olunmalıdır ki, Azərbaycan və Ermənistan vəziyyətə müxtəlif səviyyədə baxmalıdırlar. Məsələnin qaldırılması Azərbaycan üçün gözlənilməyən olsa da, Ermənilər üçün qətiyyən gözlənilməyən olmamışdı. Çünki təəssüf ki, Erməni təbliğat maşını bizimkindən daha sürətli işləmişdir. Hazırda informasiya-təbliğat prosesi dünyada var olan bütün etnik münaqişələrin, qarşıdurmaların və onun ətrafında dönən proseslərin idarə edilməsinin ən effektiv vasitələrindən biridir. Buna görə də "Qarabağ Azərbaycandır!" şüarı ilə saysız-hesabsız təbliğat layihələrinin

keçirilməsi, keçirilən hər bir layihənin effektivliyinin yoxlanılması vacib amillərdən biridir. Hal-hazırda Azad Qarabağın təbliğatının dövlət səviyyəsində keçirilməsi təbliğat prossesini daha da effektiv etməkdədir.

"Qarabağ tarixində yeni dövr-bərpa, quruculuq layihələri" adlı 3-cü fəsildə isə alınan nəticə belədir ki, Qarabağ ərazisi işğaldan azad olduğu müddətdən bu vaxta qədər daima, ara vermədən dövlət tərəfindən həm bərpa, quruculuq işləri həyata keçirilmişdir və davamlı olaraq da keçirilir, həm də müxtəlif növ tədbirlər, layihələr həyata keçirilir. Şuşa ili ilə əlaqədar olaraq tədbirlər planı hazırlanıb. Təklif olaraq qeyd etdiyim layihənin həyata keçirilməsi isə təbliğatın bəhrəsini görmək prosedurunu daha da surətləndirər. Həm turistlər üçün bir mərkəz olar və eyni zamanda şəhərimizdə qədim, tarixi abidələrimizi vizual olaraq görməyimizə şərait yaranar, həm də "Qarabağ Azərbaycandır!" təbliğatının aparıldığı şəhərcik olar.

Ümumilikdə isə "Qarabağ Azərbaycandır!" təbliğatının daha da inkişaf etməsi üçün aşağıdakı təklifləri vermək olar:

1. Dövlətimizin inkişaf etməsini, bölgədə güc, intellekt mərkəzi olması istiqamətində davamlı olaraq çalışmalıyıq. Çünki güc, intellekt cəhətdən nə qədər inkişaf etsək müttəfiq ölkələr ətrafımızda daha çox olar, bölgədə səsimizi rahatlıqla duyura bilərik və təbliğat siyasətimiz də bir o qədər uğurlu olar.
2. İşğaldan azad olunan ərazilərdə keçiriləcək olan layihələrin mövzusu son dərəcə aktual olması daha yaxşı olar. Belə ki, layihədə iştirak edən iştirakçıların, turistlərin diqqətin çəkməli, daha çox turist axınını təmin etməlidir.
3. Təbliğat maşınının daha çox inkişaf etməsi üçün dərsliklərdə bu mövzuya geniş yer verməli, dövlət tərəfindən proqramlar işlənib hazırlanmalıdır.

## İSDİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. Hüseynov Y. (2018). "Qarabağ", Bakı, "Afpoliqraf", 303 səh.
2. Qəniyev H. (2019). "Azərbaycan tarixi", Bakı, "Elm və təhsil", 441-458 səh.
3. Hacıyev Q. (2010) "Qarabağın maddi və mənəvi mədəniyyəti", Bakı, "Təhsil", 41-52 səh.
4. Aşırlı A. (2005). "Türkün Xocalı soyqırımı", Bakı, "Nurlan", 53 səh.
5. Piriyev V. (2002). "Azərbaycan tarixi coğrafiyası", Bakı, "Araz", 120-142 səh.
6. Xəlilli X. (2006). "Qarabağ: Etnomənəvi inkişaf tarixi: Ən qədim dövrdən 1920-ci ilə qədər", Bakı, "Günəş", 79-86 səh
7. Nağı A. (2014). "Qarabağ müharibəsi", Bakı, "Ağalarov Anar" ,49 səh.
8. Məmmədov N. (2009). "Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal", Bakı, "Təhsil" , 194 səh.
9. Həmidov S. Atəşkəsin sonuncu günü: sülh yoxsa müharibə\\ Beynəlxalq münasibətlərin aktual problemləri, 2009, №2, 12 səh.
10. Məmmədova H. (2009). "Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi", Bakı, "Elm", 32 səh.
11. Aşırlı A. (2005). "Türkün Xocalı soyqırımı", Bakı, "Nurlan", 54 səh.
12. Hacıyev İ. (2012). "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri", Naxçıvan, "Əcəmi", 117 səh.
13. Göyüşov R. (1988). "Azərbaycanda xristian abidələri" Bakı.
14. Məmmədov H.B. (2009) "Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu", Bakı, "Aypara-3", 328 s.
15. İ.H.Əliyev, N.V.Paşinyan, V.V.Putin. (2020). "Üçtərəfli bəyanat"
16. İsmayılov F. (2013). "Tarix və mədəniyyət abidələri; qorunması, istifadəsi və bərpası barədə təlimatlar", Bakı, "Nurlar".
17. Məmmədov N. (2015). "İşğal altındakı tarixi-dini abidələrimiz",Bakı, "Nurlar", 12-92 səh.

18. Məmmədov N. (2010). “Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi”, Bakı, “Təhsil”, 72-81 səh.
19. Gözəlov F., İmanov M., Rüstəmzadə İ., Orucov T., Abbasov E. (2017). “Qarabağ xalq oyunları və meydan tamaşaları”, Bakı, 7 səh.

**Türk dilində**

1. Arif(Şıxəliyev) E. (2002). “Türkiye ve Azerbaycan Açısından Ermeni Sorunu”, Ankara, “Türk Vakfı”, 37-59.
2. Ateş Ş. (2002). “Bir siyasal iletişim tarzı olan propagandanın tanınması ve propaganda metinlerinin çözümlenmesi”, Ankara, “Bilig”, 117-120.
3. Canöz K. (2007). “Halkla ilişkiler uygulaması olarak lobicilik: Ankara Ticaret Odası (ATO) örneği”, Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü, 282.
4. Yılmaz T. (2009). “Stratejik Güç; Lobicilik”, İstanbul, “Bilig”, 5-6.
5. Akgönül S. (2002). ““Fransa Ermeni Toplumu ve Türkiye: Propaganda ve
6. Lobicilik”, İstanbul, Ermeni Araştırmaları, 222-251.

**İngilis dilində**

1. Ashta A. (2018). Realistic theory of social entrepreneurship: Selling dreams as visions and missions, Cost Management(March/April): стр.35-41.

**Rus dilində**

1. Политика экологического, культурного и экономического террора Армении против Азербайджана” // “Science and world” International scientific journal, Russia, Volgograd, 2015, №8 (24), Vol I, стр.141-145.
2. Социально-экономические, политические и правовые аспекты территориальных притязаний Армении на Нагорный Карабах //“Geostrategiya” ictimai-siyasi, elmi jurnal. 2017, №03 (39), may-iyun, s. 14-19.

**İnternet resursları**

1. https://nk.gov.az/az/document/5959/
2. http://culture.gov.az/az/umumi-xeberler/13731

3. https://www.mys.gov.az/mtbuat/tdbirlrdetails/89/virtual-qarabag?sa=X&ved=2ahUKEwiDmrafnvPmAhXC4aYKHUB-DiIQFjADegQICBAB
4. https://www.virtualkarabakh.az/az.html
5. https://justiceforkhojaly.org/az/international_media_reports
6. https://44days.info/
7. www.preslib.az
8. https://president.az/
9. https://mod.gov.az/az/qarabagin-tarixi-075/
10. https://www.bakucitycircuit.com/az/news/pwc-study-reveals-277-million-usd-f1-benefit-to-baku
11. https://www.mfa.gov.az/az/category/beynelxalq-emekdasliq
12. https://www.economy.gov.az/article/qarabag-iqtisadi-rayonu/31889

# Əlavələr

## Əlavə 1.

**Şəkil 1:** Ağdam Cümə Məscidi



**Mənbə:** (Məmmədov,2015: s.9, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 2:** Qutlu Musa türbəsi



**Mənbə**: (Məmmədov,2015: s.12, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 3:** Pənah Xanın türbəsi



**Mənbə:** (Məmmədov,2015: s.14, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 4**: Xurşidbanu Natavanın qəbirüstü abidəsi



**Mənbə:** (Məmmədov,2015: s.15, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 5**: Şahbulaq məscidi



**Mənbə:** (Məmmədov,2015: s.9, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 6**: Xudafərin körpüsü



**Mənbə:** (Məmmədov,2015: s.22, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 7:** Qarğabazar Karvansarası



**Mənbə:** (Məmmədov,2015: s.27, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 8:** Mirəli Türbəsi



**Mənbə:** (Məmmədov,2015: s.31, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 9:** Hacı Ələkbər məscidi



**Mənbə:** (Məmmədov,2015: s.30, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 10**: Xudavəng monastırı



**Mənbə:** (Məmmədov,2015: s.37, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 11**: Gəncəsər məbədi



**Mənbə:** (Məmmədov,2015: s.38, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 12**: "Ağoğlan" məbədi



**Mənbə:** (Məmmədov,2015: s.46, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 13:** Məlik Əjdər türbəsi



**Mənbə:** (Məmmədov,2015: s.50, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 14**: Laçın Tarix-diyarşünaslıq muzeyi



**Mənbə:** (Məmmədov,2015: s.54, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 15**: Laləzar körpüsü



**Mənbə:** (Məmmədov,2015: s.61, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Əlavə 6**

**Şəkil 16**: Yuxarı Gövhər ağa məscidi və ya Şuşa cümə məscidi



**Mənbə:** (Məmmədov,2015: s.66, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 17**: Pənahəli xan sarayı



**Mənbə:** (Məmmədov,2015: s.14, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 18**: Xan qızı Natəvanın evi



**Mənbə:** (Məmmədov,2015: s.15, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 19**: Aşağı Gövhər ağa məscidi



**Mənbə:** (Məmmədov,2015: s.72, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Əlavə 7**

**Şəkil 20:** Xan qızı  Natavanın bulağı



**Mənbə:** (Məmmədov,2015: s.15, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 21**: Mamay məscidi



**Mənbə:** (Məmmədov,2015: s.74, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 22**: Vaqif türbəsi



**Mənbə:** (Məmmədov,2015: s.76, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 23**: Şuşa qalası




**Mənbə:** (Məmmədov,2015: s.63, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Əlavə 8**

**Şəkil 24**: Əsgəran qalası



**Mənbə:** (Məmmədov,2015: s.82, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 25**: Amarax qəsr kompleksi



**Mənbə:** (Məmmədov,2015: s.89, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Şəkil 26**: Azıx mağarası



**Mənbə:** (Məmmədov,2015: s.84, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

**Əlavə 9**

**Şəkil 27:** Səkkizguşəli türbə



**Mənbə:** (Məmmədov,2015: s.80, file:///C:/Users/User/Downloads/Abideler%20(1).pdf)

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Ünsiyyət müddətinin psixodinamik işləmi........20
**Cədvəl 2:** Təbliğatçıların həqiqəti burma modeli........21
**Cədvəl 3:** Demoqrafik vəziyyətə dair bəzi statistik məlumatlar........27
**Cədvəl 4**: Məşğulluq və əmək haqqına dair bəzi statistik məlumatlar ........30
**Cədvəl 5**: Kənd təsərrüfatı üzrə statistik məlumatlar........30
**Cədvəl 6**: Səhiyyə, təhsil və digər sosial sahələr üzrə bəzi statistik məlumatlar........32
**Cədvəl 7**: Şuşa ili ilə əlaqədar tədbirlər planı........57

## Şəkillərin siyahısı

**Şəkil 1:** Ağdam Cümə Məscidi Yuxarı Gövhər ağa məscidi və ya Şuşa cümə məscidi ........77
**Şəkil 2:** Qutlu Musa türbəsi........77
**Şəkil 3:** Pənah Xanın türbəsi........77
**Şəkil 4**: Xurşidbanu Natavanın qəbirüstü abidəsi........78
**Şəkil 5**:Şahbulaq məscidi........78
**Şəkil 6**: Xudafərin körpüsü........78
**Şəkil 7:** Qarğabazar Karvansarası........79
**Şəkil 8:**Mirəli Türbəsi........79
**Şəkil 9:** Hacı Ələkbər məscidi........
**Şəkil 10**: Xudavəng monastırı........80
**Şəkil 11**: “Gəncəsər”........80
**Şəkil 12**: “Ağoğlan” məbədi........80
**Şəkil 13:** Məlik Əjdər türbəsi........81
**Şəkil 14**: Laçın Tarix-diyarşünaslıq muzeyi........81
**Şəkil 15**: Laləzar körpüsü........81
**Şəkil 16**: Yuxarı Gövhər ağa məscidi və ya Şuşa cümə məscidi........82
**Şəkil 17**: Pənahəli xan sarayı........82
**Şəkil 18**: Xan qızı Natəvanın evi........82
**Şəkil 19**: Aşağı Gövhər ağa məscidi........82
**Şəkil 20:** Xan qızı Natavanın bulağı........83
**Şəkil 21**: Mamay məscidi........83
**Şəkil 22**: Vaqif türbəsi........83
**Şəkil 23**: Şuşa qalası........83
**Şəkil 24**: Əsgəran qalası........84
**Şəkil 25**: Amarax qəsr kompleksi........84
**Şəkil 26**: Azıx mağarası........84
**Şəkil 27:** Səkkizguşəli türbə Məbəd (V-VIII əsrlər)........85